

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Beynəlxalq müşahidəçilər seçki hazırlığından razıdırlar



4

# Biz gənc nəslimizlə haqlı olaraq fəxr edə bilərik!



2

**Prezident İlham Əliyev: "Olimpiya Oyunlarındakı uğurlarımız göstərir ki, Azərbaycan güclü idman dövlətidir"**

SƏS

№ 146 (7071)

15 avqust 2024-cü il.
Qiymәti 60 qəpik

# Azərbaycana böyük iqtisadi dividendlər gətirən "Formula-1"

**Dövlət başçısının Sərəncamı ilə ölkəmizə gələcək əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurları sadələşdirilib**



5

## Paltar qurutma maşınları: XƏSTƏLİK, YOXSA PUL İSRAFI?



8

## Rusiyalı ekspert: "Ermənistan Azərbaycan və Türkiyə arasında bölünəcək"



13

## Qarabağın inciləri: Ağbulaqlı Əbdürrəhim



15

## Gizli səsyazma sübut kimi qiymətləndirilir?



16

## Müsəlman aləminə qarşı cinayət



12

# Biz gənc nəslimizlə haqlı olaraq fəxr edə bilərik!

## Prezident İlham Əliyev: "Olimpiya Oyunlarındakı uğurlarımız göstərir ki, Azərbaycan güclü idman dövlətidir"



Azərbaycan inkişafının bütün istiqamətləri üzrə modelini ortaya qoyması danılmazdır. Siyasi, iqtisadi, hərbi, mədəni və s. istiqamətlər üzrə Azərbaycanın əldə etdiyi nəticələrə görə bölgədə və dünyada söz sahibi olan bir ölkəyə çevrilməsi və nailiyyətlərin əldə olunmasında Prezident İlham Əliyevin gərgin əməyi, yorulmadan çalışması, uzaqgörən xarici və daxili siyasəti dayanır. Müasir dünyada liderlik qabiliyyəti ilə seçilən Cənab Prezidentin ölkəyə rəhbərliyi dövründə Azərbaycan möhtəşəm inkişaf yoluna qədəm qoyub və əldə olunan uğurlarının təhlilinə nəzər salsaq görərik ki, Cənab İlham Əliyevin hər bir vədi əməli fəaliyyətində öz əksini tapıb. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə, ölkə həyatının bütün sahələrində olduğu kimi, idmanın inkişafına yönəlmiş qərarların qəbulu, tədbirlərin reallaşması idman sahəsində ölkəmizin yüksək beynəlxalq nüfuz qazanmasına səbəb olub. Azərbaycanda keçirilən dünya və Avropa çempionatları sübut edir ki, həqiqətən də, Azərbaycanda idman sürətlə inkişaf edir. Ölkəmizin, ardıcıl olaraq beynəlxalq yarışlarda iştirakı və uğurlar qazanması beynəlxalq aləmin Azərbaycandakı idman hərəkatına olan diqqətini artırıb. Əlbəttə ki, müasir dövrümüzdə idman sahəsində gerçəkləşdirilən dövlət siyasəti, Olimpiya ideallarının təbliği, müasir Olimpiya kompleksləri və digər tədbirlər nəticəsində idmançılarımız böyük uğurlar əldə edirlər. Azərbaycan dövləti idmanın, xüsusilə də, Olimpiya Hərəkatının inkişafına da böyük diqqət yetirir. Ümummilli Lider Heydər Əliyevin diqqət və qayğısı ilə özündə yeni keyfiyyət dəyişikliklərini əxz edən Azərbaycanın Olimpiya hərəkatı təzliklə sürətli inkişaf mərhələsinə qədəm qoydu.

### "OLİMPİYA OYUNLARI BÜTÜN DİGƏR İDMAN YARIŞLARI ARASINDA XÜSUSİ YER TUTAN BİR YARIŞDIR"

Azərbaycan Prezidenti İlham Əliyevin bu sahəyə diqqətlə yanaşması, idmançıların qayğı və problemləri ilə yaxından maraqlanması ölkədə idmanın kütləviləşməsinə, gənc nəslin bu sahəyə sürətli axınına şərait yaradıb. Azərbaycanın idman sahəsində qazandığı nailiyyətlər, dünya və Avropa çempionatlarında, Olimpiya Oyunlarında idmançılarımızın qazandığı medallar və mükafatlar ölkəmizin beynəlxalq idman təşkilatlarında da mövqeyinin xeyli güclənməsinə səbəb olub. "Olimpiya Oyunları bütün digər idman yarışları arasında xüsusi yer tutan bir yarışdır, dörd ildən bir keçirilən idman bayramıdır və əlbəttə ki, hər bir idmançı, hər bir ölkə bu Oyunlara xüsusilə hazırlaşır. Bizim Olimpiya Oyunlarındakı uğurlarımız əvvəlki illərdə də, son Oyunlarda da göstərir ki, Azərbaycan güclü idman dövlətidir." Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev Paris Yay Olimpiya Oyunlarında medal qazanmış Azərbaycan idmançılarını və onların məşqçilərini qəbul edərkən bildirib. İdmançılarımızı gözəl qələbələr münasibətilə təbrik edən dövlətimizin başçısı qeyd edib ki, onlar Yay Olimpiya Oyunlarında ölkəmizi ləyaqətlə təmsil edərək, Azərbaycan Bayrağını ucaldıb və bütün xalqımızı sevindiriblər: "Təsadüfi deyil ki, biz bu Oyunlarda dünyanın ən güclü 30 ölkəsinin arasında yer almışıq - 2 qızıl, 2 gümüş və 3 bürünc medal, hesab edirəm ki, çox yaxşı nəticədir. İdmançıları, onların məşqçilərini bu gözəl hadisə münasibətilə bir daha təbrik etmək istəyirəm".

Xatırladaq ki, 1992-ci ildə Milli Olimpiya Komitəsi fəaliyyət göstərməyə başladı. 1997-ci ildən Milli Olimpiya Komitəsinə Cənab İlham Əliyev Sədr seçiləndən sonra Azərbaycanda Olimpiya Hərəkatı vüsət almağa başladı. Bu illər ərzində Milli Olimpiya Komitəsinin təşkilati və quruculuq işləri bir an belə səngimədi. Azərbaycanın hər bir yerində yeni və müasir idman komplekslərinin tikintisinə başlanıldı. Azərbaycan Milli Olimpiya Komitəsi başqa Olimpiya komitələri üçün örnək oldu. Belə ki, Ulu Öndər tərəfindən Atlanta Oyunlarına hazırlıq haqqında sərəncamın imzalanması, hazırlığın daim dövlət nəzarəti altında saxlanması, idmançılara dövlət tərəfindən diqqət və qayğının gücləndirilməsi öz bəhrəsini vermiş oldu. Azərbaycan Atlantada 23 idmançı ilə təmsil olundu, bir gümüş medal qazanıldı. Azərbaycan Olimpiya ölkəsinə çevrildi. Həmin zamandan Azərbaycanda idman və olimpiya hərəkatının inkişafında da böyük canlanma diqqətdən yayınmayıb. 1998-ci ildə respublikamız ilk dəfə Qış Olimpiya oyunlarında iştirak edib. Yaponiyanın Naqano şəhərində keçirilən XVIII Qış Olimpiya oyunlarında respublikamız 5 nəfər idmançı ilə dörd yarışda təmsil olunub. 2000-ci ildə Sidney Olimpiyadasında Azərbaycan idmançıları 2 qızıl, 1 bürünc medal qazandı. Azərbaycan komanda hesabına 199 ölkə arasında 34-cü, Avropa ölkələri arasında isə 23-cü oldu. Bu ölkənin Olimpiya hərəkatı tarixində ən böyük uğuru idi. 2002-ci ildə Azərbaycan ikinci dəfə Qış Olimpiya Oyunlarının iştirakçısı oldu. ABŞ-ın Soit Leyk siti şəhərində keçirilən bu oyunlarda idmançılarımız 3 yarışda iştirak etdilər. 2004-cü ilin avqustunda Afinada keçirilən Olimpiya Oyunlarında, idman tariximizdə ilk dəfə olaraq, 5 medal qazandı. Çində keçirilən Yeniyetmələrin Olimpiya Oyunlarında Azərbaycanın gənc atletləri beşi qızıl olmaqla 12 medal qazanaraq, 200-ə yaxın iştirakçı arasında 10-cu yeri tutmuşdur. Bütün bunlar Cənab İlham Əliyevin təşkilatçılıq fəaliyyətinin uğurlu nəticələridir.




### "BİZİM İDMANÇILARIMIZ ƏN YÜKSƏK QİYMƏTƏ LAYİQ OLMALIDIR"

Bu Oyunlarda müsəlman ölkələri arasında Azərbaycan üçüncü yerdə qərarlaşıb. "Nəzərə alsaq ki, İslam Əməkdaşlıq Təşkilatında 57 üzv mövcuddur, hesab edirəm, bu, çox gözəl və tarixi nəticədir. Bütövlükdə komandamızın çıxışına qiymət verərək mən hesab edirəm ki, bizim idmançılarımız ən yüksək qiymətə layiq olmalıdır", - deyən Prezident bildirib: "Daha çox medal qazana bilərdik, bəli, qazana bilərdik. Amma bu idmandır, idmanda qələbə də olur, məğlubiyyət də olur. Əsas odur bu Oyunlar bir daha göstərdi ki, Azərbaycanda idmanın inkişafı ardıcıl surətdə gedir. Onu da bildirməliyəm ki, bizim idmançılarımız beş idman növündə medallar qazanmışlar: cüdo, boks, taekvondo, yunan-Roma güləşi, sərbəst güləş üzrə. Yəni, bu da onu göstərir ki, Azərbaycanda idmanın bir çox növləri inkişaf edir".

### "BİZ NÖVBƏTİ OLİMPİYA OYUNLARINA DA İNDİDƏN HAZIRLAŞMALIYIQ"

Azərbaycan Prezidenti qeyd edib ki, xüsusilə Olimpiya Oyunlarında qazanılan qələbə idmanda da, məişətdə də, həyatda da idmançının üzərinə böyük məsuliyyət qoyur: "Əlbəttə ki, indi müəyyən istirahətdən sonra yeni hazırlıq prosesinə start veriləcək, həm Avropa, həm dünya çempionatlarına hazırlıq işləri gedəcək. Əlbəttə ki, biz növbəti Olimpiya Oyunlarına da indidən hazırlaşmalıyıq. Bir neçə idman növündə nəsillərin dəyişməsi prosesi gedir. Ona görə təbii ki, biz növbəti Olimpiya Oyunlarına bu prizmadan yanaşmalıyıq və xüsusilə uşaq-yeniyetmə idmanına bundan sonra da diqqət göstərilməlidir".

İdmançılarımızın yalnız məharətləri ilə deyil, həm də yarış zamanı layiqli davranışları ilə seçildiklərini vurğulayan dövlətimizin başçısı bildirib ki, bu, onların yüksək mənəvi keyfiyyətlərini bütün dünyaya nümayiş etdirdi: "Əlbəttə ki, bu nailiyyətlər, eyni zamanda, medallar qazanmış idmançıların məsuliyyətini də artırır.

*Ardı səh. 3*

# Biz gənc nəslimizlə haqlı olaraq fəxr edə bilərik!

## Prezident İlham Əliyev: "Olimpiya Oyunlarındakı uğurlarımız göstərir ki, Azərbaycan güclü idman dövlətidir"

Əvvəli səh. 2

Mən şadam ki, bizim idmançılarımız həm yarışlarda, eyni zamanda, həyatda nümunəvi davranış qaydaları göstərirlər. Yəni, siz gənclər üçün nümunəsiniz. Gənclər sizə baxıb sizin kimi olmaq istəyəcəklər və bu qələbənin vacib olan tərəflərindən biri məhz bundan ibarətdir."

Prezident İlham Əliyev uzun illər Olimpiya Oyunlarında, dünya və Avropa çempionatlarında ölkəmizin adını ucaldan veteran idmançılara minnətdarlığını ifadə edib. Bütün bu uğurlar onu göstərir ki, gənc nəslin fiziki və mənəvi cəhətdən sağlam yetişməsini dövlətimiz daim diqqət mərkəzində saxlayır. Məhz bu diqqət və qayğı Azərbaycanın





qarşıdakı illərdə idmanda daha böyük uğurlara imza atacağını deməyə əsas verir.

Azərbaycan idmançıları hər bir yarışdan qələbə sorağı ilə vətənə dönürlər. Olimpiya Oyunlarında da bir daha Qalib Azərbaycanın bayrağını yüksəkliklərə qaldırdılar, dövlət himnimiz səsləndirildi. Azərbaycan uğurlu modelini, gücünü bütün dünyaya hər bir sahədə göstərir.





Bu gün ölkəmizdə cəmiyyətin inkişaf edən bütün sahələri kimi idman da öz çiçəklənmə dövrünü yaşayır. Yüksək səviyyəli idman infrastrukturunun yaradılması və olimpiya idman komplekslərinin inşa edilərək xalqımızın ixtiyarına verilməsi bunun təzahürüdür.



Azərbaycanda bir çox müasir Olimpiya idman qurğuları tikilib istifadəyə verilib. Azərbaycanın bölgələrində onlarla müasir Olimpiya İdman Kompleksi tikilib. Bakıda isə ən müasir idman infrastrukturu mövcuddur. 70 min tamaşaçı yeri olan Olimpiya Stadionunu, Milli Gimnastika Arenası, Su İdmanı Sarayı və Bakı Atıcılıq Mərkəz və s. müasir idman qurğularıdır. İdmanın kütləviliyi təmin edilib.



"Nəzərə alsaq ki, idmanla məşğul olmaq üçün indi ölkəmizin hər bir yerində gözəl şərait var. İdmana rəhbərlik edən qurumlar arasında koordinasiya işləri düzgün qurulub, federasiyalar, klublar uğurla fəaliyyət göstərir. Nəzərə alsaq ki, hər bir Olimpiya Oyunlarından sonra, xüsusilə ölkəmiz üçün uğurlu Oyunlardan sonra idman bölmələrinə uşaqların, yeniyetmələrin axını müşahidə olunur, mən əminəm, növbəti Olimpiya Oyunlarına hazırlıq prosesi də ardıcıl aparılacaq" - deyən Prezident onu da diqqətə çatdırıb ki, uzun illər ərzində idmanın kütləviliyi ilə bağlı dediyim sözlər və verdiyim tapşırıqlar bir məqsədi güdür ki, fiziki, mənəvi cəhətdən sağlam, Vətənə bağlı, vətənpərvər və peşəkar gənc nəsil yetişsin: "İdmançılarımızın uğurlu çıxışları bunu bir daha göstərdi ki, biz gənc nəslimizlə haqlı olaraq fəxr edə bilərik". Bütün qazanılan uğurlar Prezident İlham Əliyevin idmanın inkişafına və yetişməkdə olan gənc nəslə göstərdiyi xüsusi diqqət və qayğısının real və əyani təcəssümüdür.





***Zümrüd BAYRAMOVA***

# Beynəlxalq müşahidəçilər seçki hazırlığından razıdırlar



Hər bir seçki cəmiyyətin inkişafında, insanların fəallığının artırılmasında, siyasi partiyaların gücünün, imkanlarının nədən ibarət olduğunu üzə çıxarmaqda mühüm rol oynayır. Azərbaycan xalqı o xoşbəxt xalqlardandır ki, hər zaman seçki prosesinə xüsusi həssaslıqla yanaşıb, yüksək fəallıq nümayiş etdirməklə müstəqil Azərbaycanın seçki tarixinə növbəti zəfər salnaməsi yazmağa çalışıb. Demək olar ki, bütün hallarda cəmiyyət nəzərdə tutulan və vacib hesab olunan tələb və qaydalara riayət edib. İnsanlar onun fərqindədir ki, seçkilər həm də özü ilə yeniliklər gətirir, müasir uğurların qazanılmasına yardımçı olur. 2023-cü ilin fevralın 7-də yüksək seçici fəallığı ilə keçirilən prezident seçkiləri özəlliyi ilə digər əvvəlki seçkilərdən fərqlənmişdir. Çünki prezident seçkiləri bütün Azərbaycan ərazisində, Xankəndidə, Şuşada, Xocalıda, Xocavənddə, Əsgəranda, Kəlbəcərdə və digər işğaldan azad edilən ərazilərdə keçirildi. Bundan qürurverici xoş hissin ola biləcəyini düşünmürəm.

Biz qalib ölkənin qalib vətəndaşları olaraq prezident seçkilərində yüksək fəallıq nümayiş etdirməklə Qarabağı öz ordusu və xalqının dəstəyi ilə azad edən Fateh Sərkərdə İlham Əliyevin yenidən prezident seçilməsinə səs verdi. Bu xalqın Fateh Sərkərdə İlham Əliyevə minnətdarlığı idi. Prezident seçkilərindən sonra suveren Azərbaycanın ərazilərində daha bir seçkinin-növbədənkənar parlament seçkilərinin keçirilməsi planlaşdırılır. 2024-cü il sentyabrın 1-də keçilməsi nəzərdə tutulan parlament seçkilərinə hazırlıqlar tam şəkildə başa çatıb. Artıq tərtib olunan plana və Seçki Məcəlləsinin tələbinə uyğun olaraq seçkilərin təbliğat-təşviqat kampaniyası keçilir. Namizədliyini irəli sürən şəxslər seçki dairələri üzrə seçicilərlə görüşlər keçirir, fikir mübadilələri aparır, özlərinin seçki platformaları haqqında məlumatlar verirlər. Bu zaman namizədlər arasında diskussiyalar, dostcasına mübahisələr də baş verir. Təbii ki, bu kimi mübahisələr, seçki yarışı seçicilərə kimə səs vermək lazım gəldiyi barədə geniş və əhatəli bilgilər əldə etməyə imkanlar yaradır. Seçki prosesində yerli və beynəlxalq təşkilatların müşahidəçiləri ilə yaxından əməkdaşlığın edilməsi parlament seçkilərinin azad və ədalətli şəkildə keçiriləcəyindən xəbər verir. "Mərkəzi Seçki Komissiyası (MSK) daim şəffaf fəaliyyət göstərir və əməkdaşlığa açıqdır. "Seçki 2024" Müstəqil Media Mərkəzinə istinadən məlumat verir ki, bunu MSK sədri Məzahir Pənahov avqustun 13-də Milli Məclisə qarşıdan gələn seçkiləri izləmək üçün Azərbaycanda səfərdə olan Müstəqil Dövlətlər Birliyi (MDB) Baş katibinin müavini Nurlan Seytimovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşündə deyib. MSK sədri diqqətə çatdırıb ki, beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əlaqələrə mühüm əhəmiyyət verən MSK münasibətləri bundan sonra da davam etdirmək və daha da dərinləşdirmək niyyətindədir. M.Pənahov Milli Məclisə seçkilərin ilk dəfə Azərbaycanın bütün suveren ərazilərində keçirildiyini də diqqətə çatdırıb.

## Qanunların təkmil olması həm də parlamentin fəaliyyətindən asılıdır

"Bu il sentyabrın 1-nə təyin edilmiş növbədənkənar parlament seçkiləri Azərbaycan üçün böyük siyasi önəmə malikdir. Bu, Qarabağın azad edilməsindən, ölkənin ərazi bütövlüyünün və suverenliyinin tam bərpasından sonra ilk parlament seçkiləridir". Bu fikirləri "Seçki 2024" Müstəqil Media Mərkəzinə açıqlamasında qırğız siyasi analitik Mederbek Korganbayev bildirib.O qeyd edib ki, Milli Məclisin yeni heyəti noyabrda Bakıda keçiriləcək, Azərbaycanın sədrlik etdiyi İqlim Dəyişmələri üzrə BMT Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ərəfəsində formalaşdırılır. "Fikrimcə, Azərbaycan parlamentinin yeni heyətinə Qarabağın inkişafı ilə bağlı bir sıra qanun layihələrinin qəbul edilməsi, həmçinin ticarət-iqtisadi və hərbi-siyasi əməkdaşlıq sahəsində Türk Dövlətləri Təşkilatı çərçivəsində beynəlxalq sazişlərin ratifikasiyası, türkdilli dövlətlər arasında parlamentlərarası əlaqələrin gücləndirilməsi missiyası da həvalə ediləcək", - Mederbek Korganbayev deyib. Qırğız ekspert bildirib ki, hazırda Azərbaycan Mərkəzi Asiya və bütövlükdə Avrasiya regionunda regional aktor kimi geosiyasi çəkisini artırır. "Dövlətin dünya siyasi arenasında nüfuzu, hakimiyyətin sabitliyi və qanunların təkmil olması həm də parlamentin fəaliyyətindən asılıdır. Azərbaycanın parlamenti milli maraqların qorunmasında və xarici oyunçuların siyasi təzyiq göstərməyə yönəlmiş hər hansı cəhdlərinin qarşısının alınmasında xüsusi rol oynamalıdır. 2024-cü il Azərbaycan parlamentinə seçkilər rəsmi Bakının siyasi həyatında yeni bir səhifə açacaq, parlamentarizmin və dövlətçiliyin möhkəmləndirilməsində əhəmiyyətli bir addım olacaq", - deyə M.Korganbayev vurğulayıb.

## Azərbaycan demokratik dəyərlərə önəm verən ölkədir

Yuxarıda qeyd etdim kimi, seçkilərin azad və demokratik şəraitdə keçilməsi üçün Mərkəzi Seçki Komissiyası və müvafiq dövlət qurumları bütün lazım olan işləri həyata keçiblər. Seçki Məntəqələrinin müasir dövrün tələblərinə uyğun formalaşması, seçicilərin maarifləndirilməsi, müşahidəçilərin bilik və bacarıqlarının artırılması və digər vacib hesab olunan qaydalar MSK-a tərəfindən həyata keçirilib. Seçkilərdə hər birimiz səs verərkən sol əlimizin baş barmağımızın gözə görünməyən mürəkkəblə işarələndiyinin şahidi olmuşuq. Bəzən sual yaranır ki, bunun edilməsi məcburidirmi və yaxud işarələnmədən imtina etmək olarmı?Seçicinin barmağının gözə görünməyən mürəkkəblə işarələnməsi Seçki Məcəlləsinin tələbidir. Belə ki, Seçki Məcəlləsinin 104.6-cı maddəsinə əsasən seçiciyə seçki bülleteni verməzdən öncə onun sol əlinin baş barmağının dırnaq və dərisinin bir hissəsi gözə görünməyən mürəkkəblə işarələnməlidir. Barmağının işarələnməsindən imtina edən seçiciyə seçki bülleteni verilmir və ondan seçki məntəqəsini tərk etməsi tələb olunur. Bu barədə seçici siyahısında "İşarələnmədən imtina etdi" qeydi aparılır. "Azərbaycan Türk Dünyasının milli-mənəvi körpüsü, həmçinin düşüncə, iqtisadi, siyasi, mədəni mərkəzlərindən biridir. Azərbaycan Milli Məclisi Türk Birliyi üçün mühüm işlər görüb və inanıram ki, sentyabrın 1-nə təyin edilmiş seçkilərdən sonra da bu istiqamətdə işlər davam etdiriləcək". Bu fikirləri "Seçki 2024" Müstəqil Media Mərkəzinə açıqlamasında Türk Dünyası Ağsaqqallar Birliyinin İdarə Heyətinin üzvü Mürtəza Qaraçanta deyib. O bildirib ki, Azərbaycan demokratik dəyərlərə önəm verən ölkədir: "Təsadüfi deyil ki, müsəlman Şərqində ilk parlamentli respublika da məhz qardaş Azərbaycanda qurulub. Buna görə də qarşıdan gələn seçkilərin də demokratik amallara, şəffaflıq prinsiplərinə uyğun keçiriləcəyinə şübhəm yoxdur". Mürtəza Qaraçanta onu da qeyd edib ki, Milli Məclisə seçiləcək deputatların milli-ideoloji dəyərlərə sadiqliyi, Türk Dünyasının birliyinə, bütövlüyünə xidmət edən maraqlı təkliflər irəli sürmələri Azərbaycan parlamentinin dövlətin prioritet məqsədlərində ağırlığını ortaya qoyacaq.

## Parlament seçkiləri qələbələrin davamı olacaq

Seçki prosesini müşahidə edəcək yerli və xarici müşahidəçilər tez-tez dövlət qurumlarında, seçki məntələrində olur, hazırlıqları əyani şəkildə nəzərdən keçirir, müəyyən səlahiyyətli şəxslərlə söhbətlər aparırlar. Audiovizual Şurada ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun (DTİHB) Seçki Müşahidə Missiyasının media analitiki Kira Kalinina ilə görüş keçirilib, teleradiolarda seçkiqabağı təşviqatın aparılması müzakirə olunub. Şuranın aparat rəhbəri Fazil Novruzov Şuranın fəaliyyəti, "Media haqqında" Qanunun qəbul olunmasından sonra audiovizual medianın tənzimlənməsi sahəsində yeniliklər, lisenziyalaşdırma, televiziya və radio kanallarının monitorinqi barədə geniş məlumat verib.Görüş zamanı 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərlə bağlı televiziya və radio yayımında seçkiqabağı təşviqatın aparılması, həmin prosesə məsul qurumlar, televiziya və radio yayımında təşviqat kampaniyasının monitorinq olunması və sairə məsələlərlə bağlı qonağı maraqlandıran suallara cavab verilib və digər məsələlərə dair müzakirələr aparılıb.

Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov avqustun 14-də ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun Milli Məclisə növbədənkənar seçkilərlə əlaqədar seçki müşahidə missiyasının rəhbəri Ditmir Buşatinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. SİA xəbər verir ki, M.Pənahov missiyanın görüş üçün təşəbbüsünü yüksək qiymətləndirib. D.Buşati səmimi qəbula görə minnətdarlığını ifadə edib və Milli Məclisə seçkilərdə proseslərin gedişi ilə maraqlanıb. MSK sədri seçkilərin yüksək səviyyədə hazırlanıb, azad, ədalətli və şəffaf keçirilməsi istiqamətində görülən işlər, ölkə vətəndaşlarının seçmək və seçilmək hüquqlarının daha səmərəli realizə olunması üçün Komissiyanın fəaliyyəti və reallaşdırılan çoxsaylı mütəlif səpkili layihələrdən danışıb, bütün addımların qanunvericiliyin tələblərinə uyğun və tam şəffaflıq şəraitində atıldığını diqqətə çatdırıb.Qonaqların suallarını cavablandıran sədr M.Pənahov, həmçinin ilk dəfə Azərbaycanın bütün suveren ərazilərində keçiriləcək Milli Məclisə seçkilərə hazırlıqların və nəzərdə tutulan genişmiqyaslı layihələrin müvəffəqiyyətlə davam etdiyini vurğulayıb. Görüş zamanı Milli Məclisə seçkilərlə bağlı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi və müzakirələr aparılıb.

***İLHAM ƏLİYEV***

# Azərbaycana böyük iqtisadi dividendlər gətirən ”Formula-1”

## Dövlət başçısının Sərəncamı ilə ölkəmizə gələcək əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurları sadələşdirilib

***Azərbaycanın inkişafı, möhtəşəm nailiyyətlər ölkəmizin beynəlxalq miqyaslı yarışlara, festivallara, qlobal forumlara və konfranslara ev sahibliyi etməsinə səbəb olub. Paytaxt Bakıda NATO Parlament Assambleyasının seminarı, ATƏT Parlament Assambleyasının illik sessiyası, IV Bakı Beynəlxalq Humanitar, Gənclər Siyasəti üzrə I Qlobal Forumu, ”Bakı Elm Festivalı-2014”, BMT-nin Sivilizasiyalar Alyansının Qlobal Forumu və onlarla belə mühüm əhəmiyyət kəsb edən tədbirlərin təşkil olunmasında Azərbaycanın qazandığı mövqeyi, ölkəmizin beynəlxalq çəkisi və yüksək imici səbəbdir.***

Azərbaycanda idman və Olimpiya hərəkatının inkişafında da böyük canlanma müşahidə olunmuş və bu gün də belədir. Dünyanın idman arenalarında artıq özünə layiqli yer tutan Azərbaycan müxtəlif idman yarışlarına yüksək səviyyədə ev sahibliyi edib. Bədii gimnastika, qılıncoynatma, taekvondo, güləş, boks, karate, avarçəkmə, FİFA U-17 Qadınlararası Dünya Çempionatı, ”Baku World Challenge” avtomobil yarışı və Olimpiya növlərinə daxil olan digər beynəlxalq idman tədbiri, o cümlədən, Dünya və Avropa çempionatlarının təşkili ölkəmizə böyük imic qazandırıb. Ölkəmiz tarixdə ilk dəfə təşkil olunan ”Bakı-2015” Avropa Oyunlarını layiqincə təşkil etməklə, tək özünün deyil, qitənin idman tarixinə möhürünü vurmuşdu.

Gələcəyə hesablanmış idman siyasəti ölkəmizdə sağlam nəsil və böyük idmançı ordusu formalaşdırıb. Bütün bunlar Azərbaycanda həyata keçirilən idman siyasəti, həmçinin, idmanın inkişafına dövlət tərəfindən göstərilən diqqət və qayğının məntiqi nəticəsidir. Dünyanın idman arenalarında artıq özünə layiqli yer tutan Azərbaycan müxtəlif idman yarışlarına yüksək səviyyədə ev sahibliyi edib.




### AZƏRBAYCANIN İDMAN TARİXİNDƏ YENİ SƏHİFƏ

Keçirilən tədbirlər sırasında ölkəmizdə keçirilən və dünyanın diqqətini cəlb edən ən əhəmiyyətli idman tədbirlərindən biri olan ”Formula - 1” yarışmasıdır. Azərbaycanın idman tarixində yeni bir səhifə olan elit yarışmalar sırasında yer alan ”Formula-1” yarım əsrdən artıq tarixində yaddaqalan zamanını yaşayır. 2016-cı ildən başlayararaq, paytaxtımızda keçirilən ”Formula-1” yarışlarının yüksək səviyyədə keçirilməsi üçün ölkəmizdə hər cür şərait yaradılıb. Azərbaycan növbəti dəfə ”Formula - 1” yarışmasına ev sahibliyi edəcək. 2024-cü ildə Bakı şəhərində keçiriləcək Formula 1 yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Sərəncam imzalayıb. Sərəncama əsasən, 2024-cü ildə Bakı şəhərində keçiriləcək Formula 1 yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn və bu Sərəncamın 2-ci hissəsində qeyd edilən sənədlərdən hər hansı birini təqdim edən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər 2024-cü il avqustun 15-dən sentyabrın 30-dək Azərbaycan Respublikasının beynəlxalq hava limanlarında viza ala bilərlər. Sənəddə qeyd olunduğu kimi, aşağıdakı sənədlərdən biri viza verilməsi üçün əsas hesab ediləcəkdir: Formula 1 yarışlarının beynəlxalq təşkilatçıları olan ”Formula One Management Limited” Şirkətinin və Beynəlxalq Avtomobil Federasiyasının müvafiq qaydalarına uyğun olaraq akkreditasiyadan keçməni təsdiq edən akkreditasiya kartı və ya akkreditasiyadan keçməni təsdiq edən digər sənəd; Bakı Şəhər Halqası Əməliyyat Şirkətində akkreditasiyadan keçməni təsdiq edən akkreditasiya kartı; 2024-cü ildə Bakı şəhərində keçiriləcək Formula 1 yarışına bilet, o cümlədən elektron bilet və ya biletin əldə olunmasını təsdiq edən sənəd.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi 2024-cü ildə Bakı şəhərində keçiriləcək Formula 1 yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi barədə ”Formula One Management Limited” Şirkətinə, Beynəlxalq Avtomobil Federasiyasına və xarici ölkələrin müvafiq orqanlarına məlumat verəcək. 2024-cü ildə Bakı şəhərində keçiriləcək Formula 1 yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi, habelə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ”ASAN Viza” sistemi vasitəsilə elektron viza almaq imkanı barədə məlumatın Nazirliyin, eləcə də Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirliklərinin və konsulluqlarının internet informasiya ehtiyatlarında yerləşdirilməsini təmin edəcəkdir.

### SAYCA SƏKKİZİNCİ DƏFƏ TƏŞKİL EDİLƏCƏK BAKI YARIŞI

Qeyd edək ki, Beynəlxalq Avtomobil Federasiyasının (FIA) Avtoidman üzrə Ümumdünya Şurası 2024-cü il Formula 1 Dünya Çempionatının təqviminə əsasən, paytaxtımız növbəti Azərbaycan Qran Prisinə 2024-cü ilin 13-15 sentyabr tarixlərində ev sahibliyi edəcək. Sayca səkkizinci dəfə təşkil ediləcək Bakı yarışı təqvimdə yer alan 24 yarışdan biridir. Formula 1 növbəti təqvimi yarışların keçiriləcəyi müxtəlif qlobal regionlara əsasən tərtib edib. Burada məqsəd F1-in Davamlılıq Siyasətindən irəli gələrək mövcud logistik çətinlikləri aradan qaldırmaq və nəticədə yarışları davamlılıq prinsipləri əsasında keçirməkdir.

Formula 1 azarkeşləri arasında keçirilən sorğuya əsasən, respondentlərin 74 faizi Formula 1 Azərbaycan Qran-Prisinin davamlı keçirilməsinin tərəfdarıdır. Azarkeşlərin 73 faizi Bakı şəhər halqasının F-1 yarışının təşkili üçün möhtəşəm yer olduğunu, 74 faizi isə onun ötmə manevri üçün ideal imkan yaratdığını qeyd edib. Ümumilikdə respondentlərin 62 faizi Bakı yarışının Formula 1 təqvimində ən sevimli yarışlardan biri olduğunu vurğulayıb. Beynəlxalq tədbirlərin keçirilməsi mürəkkəb bir mexanizmə malik olduğundan, təşkilatçılıq, təhlükəsizlik və iqtisadi imkanların mövcudluğu da həlledici rola malikdir ki, ölkəmizdə bütün bu və ya digər tədbirlər yüksək səviyyədədir.

### ”FORMULA-1” YARIŞINI KEÇİRƏN ŞƏHƏRLƏR İNKİŞAF ETMİŞ ÖLKƏLƏRİN YA PAYTAXT ŞƏHƏRLƏRİ, YA DA Kİ, BÖYÜK ŞƏHƏRLƏRİDİR”

Təbii ki, keçirilən bu və ya digər tədbirlər turistlərin ölkəmizə axınını daha da gücləndirib. Bakıda keçirilən ”Formula-1” Avropa Qran-Prisi yarışlarını dünyanın 200-yə yaxın ölkəsində 500 milyondan çox azarkeşin televiziya vasitəsilə izləməsi, təbii ki, ölkəmiz ətrafında olan münasibətləri formalaşdırır. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində Formula-1 yarışın ölkəmiz üçün çox böyük faydası olduğunu bildirib: ”Birincisi, ”Formula-1” yarışını keçirən şəhərlər inkişaf etmiş ölkələrin ya paytaxt şəhərləri, ya da ki, böyük şəhərləridir. Onların arasında Bakı şəhərinin mövcudluğu bizim üçün böyük hadisədir. İkincisi, ”Formula-1” yarışı ölkəmizə böyük iqtisadi dividendlər gətirir, necə ki, bütün başqa şəhərlərə”. Əlbəttə ki, ”Formula-1” üzrə dünya çempionatının tamaşaçı auditoriyası bütün qitələri əhatə edir. Amerika, Avropa, Avstraliya, Asiya və Afrika ölkələrinin televiziya kanallarında yarışlar müntəzəm yayımlanır. Beş yüz milyon televiziya tamaşaçısının Avropa Qran-Prisində ən güclü pilotlarının mübarizəsini izləməklə yanaşı, şəhərimizin gözəlliyi ilə tanış olur, müasirliklə qədimliyin simvollarını özündə birləşdirən Bakı haqqında geniş məlumat əldə edə bildilər. ABŞ-ın, Böyük Britaniyanın, Kanadanın, Fransanın, İspaniyanın, Avstraliyanın, Braziliyanın, Portuqaliyanın, Almaniyanın, İtaliyanın, Cənubi Afrika Respublikasının, Rusiyanın, Yaponiyanın və Polşanın, Hindistanın məşhur televiziya kanalları Bakı Qran-Prisini yayımlamaqla yanaşı, paytaxtımıza həsr olunan reportaj və materiallar hazırlayırlar. Azərbaycanın beynəlxalq nüfuzlu yarışlara yüksək səviyyədə ev sahibliyi etməsi, qədim tarixi abidələrimiz diqqətdən kənarda qalmır.

### YERLİ VƏ BEYNƏLXALQ YARIŞLARIN KEÇİRİLMƏSİ ÜÇÜN MÜASİR MƏKAN

Ölkəmizdə mötəbər idman yarışlarını keçirməsinin arxasında da, məhz Azərbaycanın inkişafı, müasir infrastrukturu və təhlükəsiz ölkə olması amili dayanır. Ölkəmizdə müasir tələblərə cavab verən möhtəşəm idman qurğuları fəaliyyət göstərir. 2015-ci ildə istifadəyə verilən Bakı Olimpiya Stadionu 68 min tamaşaçı tutumuna malikdir. Bu nəhəng idman qurğusu müasir memarlıq üslubu, xüsusi gözəlliyi və funksional baxımdan, əlverişliliyi ilə seçilir. Beynəlxalq standartlara tam cavab verən stadionda müxtəlif funksiyalı tribunalar, qaçış zolağı və digər infrastruktur yaradılıb. Əsas və köməkçi stadionlardan, həmçinin, mexaniki binadan ibarət olan stadionda əlil tamaşaçılar, VVIP, VIP, CIP və media bölmələri mövcuddur. Bakı Tennis Akademiyası da Azərbaycanda bu tipdə inşa edilmiş ilk idman qurğusudur. İlin bütün fəsillərində yerli və beynəlxalq yarış və məşqlərin keçirilməsi üçün müasir tələblərə cavab verən istilik və havalandırma sistemi quraşdırılıb. Bundan başqa 3 min tamaşaçı tutan mərkəzi universal stadion inşa olunub. Stadionda tennislə yanaşı, voleybol, mini-futbol, basketbol, həndbol, çimərlik voleybolu, güləş, boks və idmanın digər növləri üzrə ən mötəbər çempionatlar və turnirlər keçirmək mümkündür. Bu və ya digər idman qurğularının paytaxtımızda mövcudluğu yarışların möhtəşəm keçirilməsinə əsas verir. İdman qurğuları ilə yanaşı, ölkəmizin idman sahəsində qazandıqları nəticələr də, çox vacib amillər sırasındadır. Sevindirici haldır ki, idmançılarımız həmişə onlara göstərilən etimadı doğruldublar. Bu kimi tarixi nailiyyətlər gənclərimizin idmana maraq və həvəsini daha da artırdı. Azərbaycana 56 medal qazandıran Birinci Avropa Oyunları, bir daha təsdiqlədi ki, ölkəmizdə perspektivli, güclü idmançılar nəsli yetişməkdədir. Azərbaycanda idman və Olimpiya hərəkatının inkişafında da böyük canlanma var. Bütün bunlar Azərbaycanda həyata keçirilən idman siyasəti, həmçinin, idmanın inkişafına dövlət tərəfindən göstərilən diqqət və qayğının məntiqi nəticəsidir.

***Zümrüd BAYRAMOVA***

# Bir zamanlar "Beşdaş", "Evcik-evcik", bəs indi?..



Bu gündən dünənə  Baxır, hey baxıram. O uşaqlıq, bu uşaqlıq... O oyunlar, bu oyunlar... Uşaqların bir-birinə o sevgisi, bu sevgisi... Həyət dolu uşaqlar, həyat dolu uşaqlar. Məhəllələrin səsi-küyü, sevinci, şaqraq gülüşlü uşaqları. Nə oyunlar oynayardıq. "Beşdaş"dan başlardıq. Bunun üçün saatlarla daş axtarıb yığar-yığar, daha sonra içindən hamarların, yumruların, rənglilərin seçərdik ki, gözoxşayan, əlimizə yatan olsun... Günlərlə bu daşların ən qəşəngin axtarardıq. Hələ gözdən oğurlanıb daş yığmağa yollanardıq... Bu daşlarla günləri biz edərdik baş. Nə bir qüssə, nə bir kədər, deyə-gülə o qayğısız uşaqlığı bu daşlarla atar-tutar, barmaqların on çeşidli formasından keçirərək qalib olar, xoş saatlar yaşayardıq... Bu tək bir daş oyunumu? Xeyr. Bu daş oyunu zəkamızı artırardı, göz yaddaşı bəxş edərdi uşaqlara. Əlimizin bir andaca hərəkəti saatlarla bir idmana bərabərdi. Daşlaşardı o mənalı uşaqlığımız bu daşlarda. Gün, ay nədir? - ötən, gedən. Qalan nədir? - tək xatirə...

Tək "Beşdaş"mı? Xeyr. "Evcik-evcik" oyunumuz da var idi. Daşıyardıq ev-eşikdən palaz-paltar, qab-qacaq, gəlinciklər küçəmizə. Bir guşəyə palaz açıb "evimizi" qurardıq biz. Biri ata, biri ana, biri də bala olardı. Çox sevimli ailəmizdə olanları evciklərə daşıyardıq. O illərin "Evcik-evcik" oyunundan yaddaşlara nələr hopub? Unudulmayan ən gözəli quru lavaşı ovub, üstünə də xırdalanmış pendir səpib "ailə" üçün hazırlanan yemək olub. Necə şirin yeyərdilər uşaqlar bu "yeməyi". Uzun illər bu "yeməyi" xəyallardan ala bilmir...










Bir sözümüz birimizə bəd gələndə küsüşərdik, küsülülük yuxumuzu ərşə çəkər, küsülülük bitənədək əzab çəkər, barışmağa can atardıq.

Binaların blokları "konsert zallarımız" idi. Pilləkənlər oturacaq. Qarşıdakı kiçicik bir "meydança" da çalanların, oxuyanların yeri idi. Musiqi məktəbində oxuyan uşaqların biri qarmon, nağarasın, biri tarın, kamançasın gətirərdi. Səsi olan oxuyardı. Yaşıdımız tamaşaçılar pilləkəndə çalanları alqışlardı. Oxuduğumuz yerdəcə mahnıların sözlərini unudardıq, bir andaca deyib-gülüb bir-birimizə qarışardıq. Açılardı birinci mərtəbədən bir qapı: "Ay uşaqlar, sizin əlinizdən biz hara gedək?" Açılardı ikinci mərtəbədən bir qapı: "Ay uşaqlar, bu nə səsdir?"... Qovulmaq qorxusu çökərdi üstümüzə. Böyüklərə nə var ki, alardılar pilləri əlimizdən, sevdiyimiz bu "zalı". Başqa yerdə konsert olar? Tamaşaçı bəs harada əyləşərdi, çalanları, oxuyanları o haradan dinlərdi? Bax bunları düşünərək susardıq biz...

Xatirələrə çevrilən mənzərələr bu günlərdə anılanda düşünürəm: - Böyüklərin hirsinə baxmayın, qoymasaydılar, qoymazdılar bizi o pillələrə. O səs-küyə tab gətirmək asanmıdır? Gözlərinin önündəcə olmaq üçün onlar bizə susurdular. Tək bununçün? Xeyr. Lap sonralar bildim ki, mən onlar bizi qapılardan dinləyirmiş  Sən demə, tamaşaçı tək məhəllə uşaqları deyilmiş. Qapının o tərəfində bizlə yaman qürur duyan neçə-neçə analar da, xalalar da var imiş...

"Yeddi daş", "Ortada qaldı", "Gizlənqaç", "Bənövşə, bəndə düşə", "Ocaq yandı, su qaynadı", "Əlimi siçan dişlədi", " Xan-vəzir", "Tıx-tıx", "Dama-dama", "Fincan-fincan", "Top divarda"dan danışmıram. İndi məhəllə uşaqları hər üzü şumal olan yeddi daş heç axtarmır. Onları üst-üstə yığıb topun gücü zərbəsilə heç ətrafa dağıtmır. İndi heç "Alma desəm aç, armud desəm, açma!", - deyən də yoxdur. Dəqiqələrlə ortada qalıb topun zərbələrindən qurtulmaq üçün o yana-bu yana qaçan da yoxdur. Bənövşə də küskün düşüb, üz çevirib, heç yaxına gəlmir ki, bəndə düşə, ya düşməyə... Ocaq yanmır, su qaynamır.

Məhəllələrdə indi bir zamanlar təbaşirlə çəkdiyimiz dama yoxdur. Yağışın, bir də qarın pozmasından məyuslandığımız damaları gör nə vaxtdır, "sel aparıb". "Top divarda"n enib, "Xan-vəzir" ta unudulub, "Tıx-tıx" yada düşmür, "Fincan-fincan" da oynanmır. İndi artıq o körpəcə əlləri də heç siçanlar dişləmir. Siçanlar yerini "maus"a verib. "Maus"larsa əl dişləmir, ruhu dişləyir. Kompüterlər, smartfonlar, planşetlər, bir də ki playstationlar əvəzləyib o gözəl oyunları. Xoş xatirə qaynağı o ziyansız, zərərsiz oyunları...

Tez-tez keçirəm məhəllələrdən. Yaman sükut çöküb məhəllələrə. Sanki uşaqlar yoxdur, hara isə gediblər. Lal sükut  Bu sükutu yaradan nə? Təbii ki, kompüter, telefonlar, planşetlər... Uşaqların əllərinə öz əlimizlə verdiyimiz xəstəliklər. Səsi çıxmasın, başı qarışsın, çöl-bayır istəməsin deyə, verdiyimiz telefonlar. Saatlarla kompüter qarşısına çökdürdüyümüz uşaqlar. Yorğun gözlər, əldən düşmüş sümüklər... Onurğası durğunluqdan "dil açan", özü isə əsla usanmayan, doymayan uşaqlar...

Məhəllələrdə görürəm hərdən az-maz uşaq. Əllərində planşetlər, smartfonlar  Bir kənarda anaları söhbət edir qonşularla şirin-şirin. Uşaqlarsa saatlarla oyunlarda. Körpələri vəhşiliyə sürükləyən oyunlarda  Telefondan gələn səslərə bax, gör necə də ətraflarda gurlayır: atışmalar, çığırışmalar, vahimələr...

Bir kənardasa yelləncəklər, on cür oyun qurğuları. Baxdıqca uşaq olmaq istəyirəm... Bir zamanlar heç tapmazdıq biz bunları. Ağaclardan kəndir asıb yelləncəklər qurardıq. Yelləndikcə nazikləşən kəndirlərsə qəflətən qırılar, üzüüstə yerə düşüb, yamanca yaralanardıq...

Hayqırmaq istəyirəm: - Ay uşaqlar, yerə qoyun telefonları, gəlin yellənin, atılındüşün, gününüzü heç olmasa bu oyunlarla keçirin...

Ana susur, ata susur  Nə üçün görən? Özlərinin uşaqlıqda oynadığı oyunları görən niyə öyrətmirlər uşaqlara? Gözlərinin önündəcə övladları yuvarlanır ətalətə, xəstəliyə, süstlüyə  Bilə-bilə, görə-görə görən niyə susur ana? Olanlara, keçənlərə nə üçün göz yumur ata?



Heç gec deyil, ay atalar, ay analar! Uşaqları aparın öz keçmişinizə. Oyunlara qonaq edin, onlara da daddırın o şirinliyi, savab edin. O illərdən uşaqlara bir pay verin  Edin, hökmən edin. Uşaqlara gələcəkdə bir zamanlardan danışmağa söz verin

...Bir zamanlar " Beşdaş", "Yeddi daş" oynardıq. Başlayardı bu daşlardan oyunlarımız. Heç bitməzdi, tükənməzdi  Daşlaşıbdır uşaqlığımız o daşlarda. O kiçicik daşlardan başlayan oyunlarda  Harda görsən o daşlardan, xatirələr düşür yada: şirin-şəkər xatirələr. Uşaqlıqdan qalan gözəl xatirələr...

İndi deyin, necə uçmasın xəyal o illərə? Noğul kimi oyunlardan bu gün əsər qalmayan o illərə

***Mətanət Məmmədova***

# Turizmin inkişafında hədəflər

Böyük İpək Yolunun üzərində mühüm dayanacaq kimi tanınan Azərbaycan inkişaf dövrünü yaşayaraq, daha geniş şəkildə xarici ölkələrdən turistləri qəbul edib. İstər qədim dövrlərdə, istərsə də sovet məkanında yaşadığımız zamanda Azərbaycan təbiəti, təbii sərvətləri, iqlimi, yeraltı və yerüstü sərvətləri ilə xarici vətəndaşların diqqətində olub. Bu gün beynəlxalq aləmin dövlətimizə olan marağının miqyası daha da genişlənmiş, turizm sahəsində əldə olunan nailiyyətlər, həyata keçirilən dövlət proqramları, layihələr turizm sahəsində böyük uğurlara səbəb olub. Bütün fəsillərdə gözəlliyə qərq olan Azərbaycan təbiətin bəxş etdiyi bütün yeraltı, yerüstü sərvətləri, iqlimi ilə cəlbedici edir. Turistlər də məhz təbiəti bənzərsiz, əmin-aman bir ölkədə istirahətlərinin təşkilinə önəm verdikləri üçün seçdiklər məkanlar sırasında Odlar Diyarı kimi tanınan Azərbaycana üz tuturlar. Əlbəttə ki, dünya əhalisi arasında səyahətə maraq artdıqca, turizm sektoru dayanıqlı inkişaf imkanlarına malik sahələr arasında üstün mövqeyini qoruyub saxlayır. Tarixən turizm məkanı olaraq tanınan Azərbaycan dövlətinə ilk səyahətlər ticarət, dini, siyasi məqsədləri ilə əlaqəli olub. Qədim Azərbaycan ərazisindən keçən ticarət karvanlarının hərəkəti ilk səyahətlər kimi qəbul olunub. Yaxın tarixi keçmişimizə nəzər salsaq görərik ki, müstəqillik qazandığımız ilk illərdə Azərbaycanda fəaliyyət göstərən ümumittifaq və beynəlxalq turist marşrutları ləğv olunmuşdur. Belə ki, həmin illərdə müharibə və sərhədlərdəki qeyri-stabil vəziyyət turizm sistemində bir sıra problemlərin yaranması ilə nəticələndi.







Ötən əsrin 90-cı illərin sonunda turizmin inkişaf tendensiyası ölkənin ali qanunvericilik aktlarında əksini tapdı. Belə ki, Azərbaycanda turizm sahəsi dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrildi. Ölkənin mövcud turizm potensialının beynəlxalq aləmdə tanınması, turistlərin Azərbaycana çoxsaylı səfərlərinin təşkili, turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi, müasir turizm infrastrukturunun yaradılması və s. sahələrdə məqsədyönlü tədbirlər planı həyata keçirilməyə başlandı. Ümummilli Lider Heydər Əliyev tərəfindən təsdiq edilən "Azərbaycan Respublikasında turizmin inkişafına dair 2002-2005-ci illər üçün" Dövlət Proqramının tələblərinə uyğun olaraq, turizm sahəsində beynəlxalq standartlara cavab verən mehmanxanalar tikildi, ölkəyə bir sıra aparıcı beynəlxalq investisiya şirkətləri cəlb olundu. Ulu Öndərin məqsədyönlü fəaliyyətini davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin bütün sahələrə olduğu kimi turizm sektoruna da ayırdığı diqqətin nəticəsi olaraq uğurlu nəticələr əldə olunub. Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamına əsasən, turizmin inkişafının yeni mərhələsinə təkan verəcək "Azərbaycan Respublikasında Turizmin İnkişafına dair 2008-2016-cı illər üçün Dövlət Proqramı" hazırlandı. Bu müddət ərzində nümayiş obyekti kimi istifadə olunması məqsədəuyğun hesab edilən bir sıra tarix-mədəniyyət abidələri bərpa edildi və turistlərin istifadəsinə verildi.

## TURİSTLƏRİN MƏMNUNLUQ SƏVİYYƏSİNİ ŞƏRTLƏNDİRƏN AMİLLƏR

Prezident İlham Əliyev tərəfindən turizmə göstərilən diqqətin nəticəsidir ki, bu gün Azərbaycan perspektivli turizm ölkəsinə çevirib. "Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı" ölkədə turizmin rastlaşdığı problemlərin həll edilməsinə və turizm sahəsinin daha da inkişaf etdirilməsinə müsbət təsirini göstərdi. Müasir dövrümüzdə ölkədə yüksək iqtisadi, sosial və ekoloji tələblərə cavab verən müasir turizm sahəsinin formalaşdırılması və onun ölkə iqtisadiyyatının əsas inkişaf dayaqlarından birinə çevrilməsi təmin edilir. Turizm fəaliyyəti üçün əlverişli şəraitin mövcudluğu, turizm ehtiyatları, ölkənin zəngin coğrafi landşafta malik olması, xalqımızın qədim mədəni-tarixi irsi, eləcə də onun fauna və florası bu sahənin sürətli inkişafına yol açan əsas amillərdir.

2016-cı ildə "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"nin qəbul edilməsi, elektron vizaların verilməsi prosedurunun sadələşdirilməsi və "ASAN Viza" sisteminin yaradılması turizm sahəsinin inkişafında mühüm rol oynadı. Prezident İlham Əliyevin 20 aprel 2018-ci il tarixli "Mədəniyyət və turizm sahəsində dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Sərəncam"ına əsasən, Azərbaycan Dövlət Turizm Agentliyinin yaradılması isə bu proseslərə kompleks yanaşmanın məntiqi nəticəsi kimi özünü göstərir.

Ölkəmizdə bütün sahələrdə olduğu kimi, turizminin inkişafına da dövlət tərəfindən ayrılan diqqət və qayğı bu sahəni iqtisadiyyatının aparıcı sahəsinə çevirib. Görülən işlər ölkənin müxtəlif bölgələrində turizmin fərqli növlərinin, sağlamlıq, qış, mədəni, işgüzar, ekoturizm və kənd turizmi kimi növlərinin inkişafına ciddi təsir göstərib. Turizm sektorunda göstərilən xidmətlərin yalnız kəmiyyət göstəriciləri baxımından deyil, keyfiyyət baxımından da təkmilləşdirilməsi, turistlərin məmnunluq səviyyəsinin artırılmasına nail olmaq üçün ixtisaslı kadrların hazırlanması prosesi davam etdirilir.

## DİNİ TURİZM - QORUNAN ABİDƏLƏR

Qobustan rayonunda yerləşən "Diri Baba" türbəsində turizm infrastrukturunun yaradılması bir daha dini abidələrimizə dövlətimiz tərəfindən göstərilən qayğının və dini turizmin inkişafına ayrılan diqqətin bariz nümunəsidir. 1402-ci ildə Şirvanşah hökmdarı I İbrahimin əmri ilə tikilən "Diri Baba" türbəsi dövlət mühafizəsinə götürülmüş ölkə əhəmiyyətli memarlıq abidəsidir. Sufi şeyxlərindən birinin şərəfinə tikilən türbənin bir hissəsi qaya içərisində yerləşdiyindən Qafqazın ən nadir abidələrindən hesab olunur. İkimərtəbəli türbə, yaxınlığında yerləşən süni şəkildə yaradılmış bir neçə mağara və kaha, həmçinin üzbəüz orta əsrlərə aid qəbiristanlıq və qədim türbə qalıqları birlikdə vahid bir kompleks əmələ gətirir. "Diri Baba" türbəsi Orta əsr Şirvan-Abşeron memarlığına aiddir. Bu binanın memarlıq üslubu onu XV əsrdə Bakıda inşa edilmiş görkəmli abidələr, xüsusilə Şirvanşahlar saray kompleksi ilə bağlayır. Türbə müqəddəs məkan sayılır və insanlar bu türbəyə tapınıb və tapınır. Bu nadir maddi-mədəniyyət incisi haqqında el-oba camaatı arasında müxtəlif rəvayətlər hələ də dolaşmaqdadır. "Diri baba" müqəddəs bir məkandır və bütün Şirvan eli əsrlər uzunu bu ocağa tapınıb. "Diri baba" bu gün də əzəmətlidir. Ətrafında əsaslı abadlaşdırma işləri aparılıb. Abidənin tarixi-mədəni əhəmiyyəti ilə yanaşı, turizm potensialı qiymətləndirilərək, həmçinin antropogen və təbii amillərin təsiri ilə deqradasiyaya uğramasının qarşısını almaq məqsədilə Dövlət Turizm Agentliyi tərəfindən burada bir sıra infrastruktur və bərpa işləri aparılıb.

Bu gün ölkəmizdə bütün dini abidələr dövlət tərəfindən qorunur, bərpa edilir, eləcə də bir çoxları yenidən tikilir. Dövlətimiz tərəfindən tarixi-mədəni irsin, eləcə də dini ziyarətgahların, maddi-mədəniyyət abidələrinin bərpası və mühafizəsi daim diqqət mərkəzində saxlanılır. Tolerantlıq mühitinin hökm sürdüyü Azərbaycanda Avropa ölkələrindən gələn turistlər xristianlıqla bağlı abidələrə də üz tuturlar. Şəkinin Kiş kəndindəki alban məbədi, Qəbələnin Nic kəndindəki alban kilsəsi bu qəbildəndir.

Azərbaycanda yaşayan qədim yəhudi, xristian, udin və digər milli azlıqların yaşayış məskənləri olan Krasnaya Sloboda, İvanovka və başqa kəndlər dövlətin daim diqqət və qayğısı ilə əhatə olunub. Qəbələ də müxtəlif xalqların bir məkanda yaşadığı yerdir. Bura gələn hər kəs multikulturalizmin Azərbaycanda yaşadığını və bu yaşam tərzinin sülh və dostluq üçün unikal model olduğunu görürlər. Fərqli dinin, fərqli etnosun yaşadığı Nicin timsalında Azərbaycanda mövcud olan multikulturalizmi görməmək mümkün deyildi. Nic kəndi udilərin ən iri yaşayış məskənidir. Tolerantlığın kiçik modeli olan Nic qəsəbəsində hazırda 3 kilsə, 2 məscid var. Ölkəmizdə tarixən mövcud olmuş multikultural dəyərlər sistemini - Xristian, İudaizm və İslam kimi üç səmavi dinin, bu dinlərə etiqad edən etnosların dini icmalarının və kilsə, sinaqoq və məscidlərin mövcud olduğu, eləcə də müxtəlif azsaylı xalq və etnik qrupların birgə yaşadığı regionlarımızdan biri də Qəbələ rayonudur. Dünyadakı 10 minə yaxın udinin 4 minə yaxını Qəbələnin Nic qəsəbəsində yaşayır. Qəbələnin Nic qəsəbəsində yerləşən Müqəddəs Məryəm Ana Alban kilsəsi 2019-cu ildə Heydər Əliyev Fondu tərəfindən bərpa olunmağa başlanmış və 2020-ci ilin noyabr ayında 44 günlük müharibə zamanı bərpa işləri başa çatdırılmışdır. Bu tarixi irsin yenidən bərpası Azərbaycanda multikultural dəyərlərə verilən önəmin bir göstəricisidir. Udilər bu gün alban kilsəsinin varisləridir, xristianlığı qoruyub saxlayıblar. Müqəddəs Məryəm Ana kilsəsi Azərbaycanda ən böyük kafedral kilsədir. Tarixi özündə əks etdirən Müqəddəs Məryəm Ana kilsəsinin bərpası Afina memarlığına uyğun olaraq aparılmışdır. Əlbəttə ki, ölkəmizə səfər edən turistlər üçün bu məkanlar böyük marağa səbəb olur.

Qeyd edək ki, COVID-19 pandemiyasından sonra Azərbaycan turizm sahəsini tez bir zamanda bərpa edən ölkələrdən oldu. Cari ilin yanvar-mart aylarında Azərbaycana 513 min 413 turist səfər edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 39 faiz çoxdur. Ötən il Azərbaycanı 2,2 milyon turist ziyarət edib ki, bu da əvvəlki illə müqayisədə 30 faiz artım deməkdir.

Coğrafi mövqeyinə görə, əlverişli bir ərazidə yerləşən Azərbaycanda turizm ən perspektivli və yüksək potensiallı sahə hesab edilir. Dövlətin də turizmə yaxından diqqəti və qayğısı bu sahənin gələcəkdə daha da inkişafına zəmin yaradır. Dövlət büdcəsinin 2025-2030-cu illərə kimi turizm sektorunun inkişafı hesabına genişləndirilməsinin nəzərdə tutulması da təsadüfü deyildi. Onu da qeyd edək ki, Azərbaycanda turizm sahəsində dövlət siyasəti turizmin gələcək inkişafı üçün onun əsas prioritetlərini müəyyən edir.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Paltar qurutma maşınları: XƏSTƏLİK, YOXSA PUL İSRAFI?

***Texnologiyanın inkişafı ilə gündəlik həyatı asanlaşdırmaq üçün inkişaf etdirilən cihazların istifadəsi gündən-günə adi hala çevrilir. Xüsusilə paltar qurutma maşınları son zamanlar çox populyarlaşıb. İngiltərədə aparılan yeni araşdırma nəticəsində çamaşırların maşında qurudulmasının insan sağlamlığına və təbiətə təsiri üzə çıxıb.***

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Paltar qurutma maşını bir neçə dəqiqə ərzində paltarları müxtəlif qurutma dərəcələrində qurudur və istifadəyə hazır vəziyyətə gətirir. Xüsusi qurutma proqramları sayəsində çamaşırların nəmlik səviyyəsinə və parça növünə uyğun qurutma üsulu seçilə bilər. Əslində, camaşırın təzələmə rejimi sayəsində təmiz çamaşırlardakı arzuolunmaz qoxular yuyulmağa ehtiyac olmadan aradan qaldırıla bilər.

Qurutma maşınları paltaryuyan maşınların üstünə qoyularaq istifadə edildikdə yerə qənaət etmək də mümkündür. Paltarların parça növünə uyğun olmayan proqramlarda qurudulması rəng itkisinə və aşınmaya səbəb ola bilər. Bundan əlavə, paltarlar kimyəvi tərkibi yüksək olan yuyucu vasitələrlə yuyulub quruducuda quruduqda yuyucu tozun qalıqları camaşırın üzərində toplanır və allergiyaya səbəb olur. Uşaq paltarlarının günəşdə qurudulması tövsiyə olunduğundan, alt paltarı, yataq dəsti kimi dəri ilə birbaşa təmasda olan paltarları qurutmaq üçün qurutma maşınından istifadə etmək məsləhət görülmür.



## Geyimləri ipdə qurutmağın müsbət və mənfi tərəfləri

Çamaşırlarını ənənəvi üsullarla qurutmağa üstünlük verənlər paltarlarını kəndir





və asılqanlara asır, və ya qurutma rəflərinə qoyurlar. Bu üsul çamaşırların havalandırılmasına imkan verdiyi üçün yuyucu toz qalıqlarının camaşırın üzərində yığılmasının qarşısını alır. Çamaşırların günəşdə qurudulması göbələk infeksiyasına səbəb ola biləcək mikroorqanizmləri də yox edir. Asılqan və cizgilərdən asılan və ya yuyulan kimi quruducu rəflərə səliqə ilə düzülən paltarlar daha az qırışır. Bu şəkildə ütüləmə prosesi asanlaşır.

Paltarları günəşdə qurutmaq üçün asmaq sağlam bir üsul olsa da, yağışlı qış aylarında tətbiq oluna bilməyəcəyi üçün praktiki deyil. Ev işlərinə ayırmağa vaxtı məhdud olanlar üçün çamaşırları maşından çıxardıqdan sonra asmaq və quruduqdan sonra yığıb qatlamaq yorucu və vaxt aparan bir iş ola bilər. Xüsusilə şəhər mərkəzlərində çöldə qurudulmuş çamaşırların üzərinə işlənmiş qaz, toz və his kimi yad maddələr çökərək, arzuolunmaz qoxuların əmələ gəlməsinə səbəb olur. Axşam çöldə asılan paltarlar soyuq havada şeh səbəbindən çox gec quruyur. Soyuq havalarda yorğan kimi xüsusilə qalın məhsulları düzüb qurutmaq isə mümkün deyil.

Tədqiqatçılar indi mümkün olduqca çamaşırları açıq havada qurumağa qoymağı tövsiyə edirlər.



Gündəlik həyatda geyindiyimiz paltarlardan çarpayımıza qoyduğumuz çarşaflara, hamamdakı dəsmallardan yemək masamızın üzərindəki örtüklərə qədər bir çox tekstil məhsulları vazkeçilməzdir. Bu məhsullar həyatımızda böyük rahatlıq yaratsa da, təbiətə buraxılan sintetik və ya təbii liflər şəklində mikroliflərin əsas mənbəyidir.

Liflər toxuculuq məhsullarının xammalı və ən kiçik struktur vahididir. Mikrofiber, 5 millimetr ilə 1 mikrometr arasında olan liflərə verilən addır.

Tekstil məhsullarından ayrılan liflərlə bağlı ən kritik proses paltarların yuyulmasıdır. Çünki çamaşır suyunda çoxlu qırıq liflər var. Bir çox araşdırmalar təsdiqləyir ki, həftə bir polyester paltar maşında yuyulsa belə minlərlə mikrolif buraxılır. Bu liflər əvvəlcə kanalizasiya sisteminə, sonra isə tullantı sularının təmizləyici qurğularına çatır. Əgər təmizləyici qurğu yoxdursa, vəziyyət daha da pisdir. Liflər tullantı sularının axıdıldığı dənizlərə və ya digər su mühitlərinə atılır.

İngiltərənin Northumbria Universitetinin mütəxəssisləri və kimyəvi istehlak məhsulları istehsal edən özəl şirkət tərəfindən aparılan yeni araşdırma, qurutma maşınının, eləcə də paltaryuyan maşının mikroliflərin yayılmasında rol oynadığını ortaya çıxarıb.

## Qurutma maşınları suya normal paltaryuyan maşından 40 dəfə çox mikroplastik buraxır

Elm və tibb sahəsində nəşr olunan PLOS One jurnalında dərc edilən araşdırmada, qurutma maşınlarının suya normal paltaryuyan maşından 40 dəfə çox mikroplastik buraxdığı vurğulanıb. Tədqiqatda, mikrofiber ölçmələri aparılıb. Ölçmələrdə 10 poliester və 10 pambıq tekstil məmulatı istifadə edilmişdir. Tədqiqat nəticəsində quruducunun hava çıxışında mikrofiberin buraxılmasının yuyucu çıxışda ölçülən səviyyə ilə eyni olduğu vurğulanıb.

Northumbria Universitetində araşdırma aparan Dr. Kelly Sheridan, "Hər bir prosesdə çıxarılan mikroliflərin nisbətini diqqətlə araşdırdıq. Biz qurutma maşınları vasitəsilə həyata keçirilən prosesdə böyük miqdarda mikroplastiklər buraxdığını gördük" dedi və davam etdi:

- Əvvəlki illərdə paltaryuyan maşınların buraxdığı mikroplastiklər üzərində geniş araşdırmalar aparılıb. Məsələn, 2017-ci ildə İtaliyada aparılan araşdırma nəticəsində məlum olub ki, paltaryuyan maşında yuyulan 5 kiloqram paltardan təbiətə 6-17,7 milyon mikroplastik buraxıla bilər. Lakin quruducuların emissiyaları haqqında çox az şey məlum idi.

- Liflər pambıq kimi təbii mənşəli ola bilər və ya poliester kimi neft əsaslı xammaldan da istehsal oluna bilər. Parça strukturunda liflər; istifadəsi, yuyulması, qurudulması və s. Proseslər zamanı məruz qaldıqları termomexaniki təsirlər (istilik, sürtünmə, rütubət və s.) nəticəsində strukturdan ayrılır. Bu arada, onun bir hissəsi qırılır və dağılır və daha kiçik ölçülərə qədər kiçilir. Bu zaman mikrofiberlər görünür.

- Məsələn, paltaryuyan maşınlar mikrofiberin ən vacib mənbələrindən biridir. Xüsusilə məişətdə yuyulma zamanı yüz minlərlə lif yuyulma suyuna buraxıla bilər. Yuyulmanın intensivliyi (temperatur, dövrə) nə qədər yüksək olarsa, paltara bir o qədər təsir edər və bu, emissiyaların miqdarında əks olunur.



- Araşdırmalarımızda paltarların yuyulması zamanı ayrılan mikroliflə qurutma zamanı çıxan mikrofiberin nisbətləri eyni vaxtda ölçüldü. Quruducularda hava kanalları quruducunun içindəki havanın birbaşa çölə çıxmasına səbəb olur. Bu, qurutma maşınlarının təbiətə əhəmiyyətli miqdarda mikroplastiklər buraxmasına səbəb olur. Bu səbəblə tekstil məhsullarından əmələ gələn mikroplastiklərin su ilə yanaşı hava ilə qarışdığını müəyyən etmək baxımından bu araşdırma çox əhəmiyyətlidir.

- Quruluşundan asılı olaraq bir süveter bir yuma zamanı 600-800 min lif buraxa bilir. Paltaryuyan maşınların və maşın modellərinin çıxış suyunun süzülməsi ilə bağlı buna diqqət çəkən araşdırmalar olsa da, filtrasiya səmərəliliyi hələ yüksək qoruma təmin edəcək səviyyələrə çatmayıb. Buraxılan lifin miqdarı çox yüksək olduğundan, hətta 10 faizlik sərbəst buraxılması ciddi ekoloji yük deməkdir.

- Paltaryuyan maşın istisna olmaqla, quruducunun hava çıxışında mikrofiber buraxılmasının yuyucu çıxışda ölçülən səviyyənin yüzdə 81-ə yaxın olduğu aşkar edilmişdir. Bu, çox yüksək göstəricidir. Bu nəticə göstərir ki, quruducular da mikrofiber buraxma baxımından çox zərərlidir.

Tədqiqatda göstərilən həll quruducu salfetlərdir. Dos. Dr. İlkan Özkan, "Qurutma maşınlarında istifadə edilən quruducu salfetlər mikrofiberləri saxlayır və qurutma maşınının egzozundan çıxan mikroliflərin miqdarını yüzdə 35-ə qədər azaldır" dedi.

"Tədqiqat həmçinin göstərdi ki, yuyucu-qurutma dövründə quruducu salfetlər və yumşaldıcının birlikdə istifadəsi quruducunun işlənmiş qazından çıxan mikrofiberlərin miqdarını 45 faizə qədər azaldır. Bu, çox vacib dərəcədir".



## 81 faiz mikrofiber çıxışı gerçəkləşib

Adana Alparslan Türkeş Elm və Texnologiya Universiteti Materialşünaslıq və Mühəndislik Bölümündən Dos. Dr. İlkan Özkan, "Tədqiqata görə, qurutma maşınının hava çıxışında mikrofiber buraxılması, yuyucu çıxışda ölçülən səviyyənin təxminən 81 faizini təşkil edir. Bu nəticə göstərir ki, quruducu emissiyaları da mikrofiber buraxılması baxımından çox vacibdir" dedi və həm liflər, həm də araşdırma detalları haqqında aşağıdakı məlumatları paylaşdı:



## Mikrofiberlər ətraf mühitə necə zərər verir?

"Təbii liflərin artan insan əhalisi səbəbiylə tələbatı ödəyə bilməməsi nəticəsində yaranan boşluq neft əsaslı sintetik liflərlə dolduruldu" deyən Dos. Dr. İlkan Özkan, polyester məhsulların artmasının mikro və nano plastiklərə səbəb olduğunu vurğuladı. Özkan ətraf mühitə dəyən zərəri belə təfərrüatlandırıb:

- Polyester neft mənşəli termoplastik lifdir və təbiətdə yüz illər boyu toxunulmaz qalır. Zamanla ətraf mühiti və insan sağlamlığını təhdid edən mikro və nano plastiklərə çevrilir. Araşdırmalar göstərir ki, bu plastiklər quru və dəniz ekosistemlərinə, oradan da qida, su və hava vasitəsilə insanlara çatır.

- Pambıq isə təbii sellüloza əsaslı quruluşuna görə orta hesabla 3-5 il ərzində təbiətə buraxılır. Təbii liflərin ətraf mühitə plastik yük yaratmayacağı açıq görünsə də, artan istehlakı qarşılamayacağı da aydındır. Bu səbəbdən imkan daxilində təbii liflərdən hazırlanmış paltarlara üstünlük verməliyik. Nəticədə, uzunmüddətli istifadə və lazımsız yuyulma və qurutmadan qaçınmaq adambaşına düşən plastik tullantılarının miqdarını azaltmağa kömək edəcək.

## Qurutma maşınları lazımlıdır?

Bazarda çoxlu paltaryuyan qurutma maşınları var. Bəzi brendlər hətta yeni məhsullarını "ekoloji cəhətdən təmiz" adı altında təqdim edirlər. Ümumiyyətlə, maşınlara insanlar daha az əmək tələb etdiyinə və daha sürətli olduğuna görə üstünlük verirlər.

Dos. Dr. İlkan Özkan asılaraq qurutmanın daha sərfəli olacağını vurğulayaraq dedi: "Qurutma maşınları kameradakı deşiklərdən çox isti hava buraxır və çamaşırlardakı sıx nəmi buxarlamaq üçün yavaş-yavaş fırlanır. Bu, asma qurutma ilə müqayisədə parçanı əlavə termo-mexaniki təsirə məruz qoyur. Qurutma sürəti yüksək olsa da, iş prinsipi emissiyaların miqdarını artırır. Filtr texnologiyasındakı irəliləyişlər lif tutma qabiliyyətini artırsa da, hələ ideal səviyyəyə çatmayıb. Bundan əlavə, bu qurutma üsulu, asma qurutma ilə müqayisədə əlavə elektrik istehlakı və bərpa olunan enerji mənbələrinin hələ kifayət qədər səviyyədə olmaması səbəbindən karbon izini də artırır. Nəticə etibarı ilə sərbəst asılaraq qurutma bir çox



cəhətdən daha sərfəli və faydalıdır".

## Geyimlər yuyulsa belə, bəzi kimyəvi qalıqlar qala bilər

Paltarlarını açıq havada qurutmaq imkanı olmayan bir çox insanlar paltarlarını kombi və otaqlarda qurutmaq məcburiyyətində qalırlar. Bu vəziyyət hansı riskləri yaradır?

Evdə qapalı mühitdə qurutmanın ətrafdakı rütubəti artıraraq kif əmələ gəlməsinə və bununla bağlı tənəffüs xəstəliklərinə səbəb ola biləcəyini ifadə edən Dos. Dr. İlkan Özkan, "Həmçinin paltar yuyulduqdan sonra yuyulsa belə, bəzi kimyəvi maddələr quruluşda qala bilər. "Bu kimyəvi maddələrin buxarlanmış su ilə qapalı mühitə yayılması sağlamlıq problemlərinə səbəb olur.

Artan rütubət evdə kif və mikroskopik "gənələrin" böyüməsi üçün daha əlverişli şərait yaradır və indi hamı bilir ki, bu, tənəffüs yolları xəstəliklərini, xüsusən də astmanı dəvət edir. Ona görə də heç kim rütubətli evdə yaşamaq istəmir.

Şotlandiyanın Qlazqo şəhərində yerləşən Mackintosh Ətraf Mühit Mühəndisliyi Araşdırma Mərkəzinin araşdırmasına görə, otaqda qurutmaq üçün asılan çamaşırlar evin içindəki rütubəti artırır və bəzi xəstəliklərə səbəb olur. Paltar quruducuları da eyni işi görür, amma onlar da daha təhlükəlidir.

***Ayşən Vəli***



FELYETON

# Müasir yas mərasimi

***Yox, ev nədir, mərasim evlərinə nə gəlib ki?.. İndi evə kimdir, kirli ayaqqabı tökən? Odur ey, mərasim evləri, apar, yasını sal ora, et, qurtar. Bircə gün. Bitsin, getsin. Yox, durub 7 gün yas saxlamayacaqsan ki...***

***

Mərasim evi... Böyük bir salon, 2-3 cərgə masa düzülüb, molla da oturub başda, başının da üstündə mərhumun şəkli, qarşısında da mikrofon. Bax, müasir yaslarda ən bəyəndiyim bu mikrofondur. Çünki burada ağız deyəni qulaq eşitmədiyi üçün mollalar yeni üsula əl atıblar, keçiblər səsucaldıcıya.



Masaların üzəri naz-nemətlərlə doludur. Bir qabda müxtəlif şirniyyatlar, birində çərəzlər, qənd, konfet, halva, çörək, pomidor-xiyar salatı, göyərti, turşu, dovğa, bunlar hamısı əvvəldən düzülüb, hazırca dayanıblar.

***

Mollanın ətrafında mərhumun ən yaxınları əyləşib. Ağlayırlar. Camaat da onlara yaxınlaşıb baş sağlığı verir, gəldiyini gözə soxur, qayıdıb həmin naz-nemətli masaların ətrafında əyləşir. Ta ağlamaq-zad nədir, bitdi. Fikir qalır yeməklərin yanında, ta yada ölən düşər?.. Nemətlərin ətri bu hissi ərşə qaldırır.



***

Saat 12-13 arası zalda qəribə bir canlanma yaranır. Camaat dəstə-dəstə gəlir. Çünki ehsana çatmaq söhbəti var. Gəldin, çatdın, bu naz-nemətlərdən yeyə biləcəksən. Yox, əgər bir qədər gecikdinsə, ağlın evlərdəki yasa getməsin ki, axşamadək hər gələni başqa bir otağa keçirib orada ehsan verirdilər. Burada gecikdin, batdın.

Hə, dediyim saatlarda burada insan axını var.

***

Mollanın o başda az qalır bağrı çatlasın. Ortalığa yemək gətirilib. Bu dəfə camaatın səsi bir tərəfdən, qaşıqların səsi də bir tərəfdən. Molla da yeyir, demirəm, durub baxır. Lakin aradabir ev sahibinin könlü xoş olsun deyə, "Fatihə" verir, ehsan verənləri tərif edir, sağlıqlarına dua oxuyur. İstəyir, camaat "Amin" deyə. Çünki bu ümumi-el duası ev sahibinin ən xoşuna gələn andır. Lakin axı səs qoymur. Bu dəfə molla mikrofona danışmır, çığırır.

***

Yan tərəfdəki masadan gələn söhbət diqqəti cəlb edir. Az, Fatma, necəsən? Sən Allah, bağışla ey, indi tanıdım səni. Az, Allah bu kişiyə rəhmət eləsin, gör bizi neçə ildən sonra görüşdürdü.

-Boo, az, Südabə, sənsən?

-Hə, mənəm.

Qaxırlar, qucaqlaşıb öpüşürlər, ayrılmaq bilmirlər. Elə bu anda bütün zalın diqqəti onlara yönəlir. Onların da heç vecinə deyil ki, biz toydayıq, yasdayıq, ya haradayıq.

-Ay Fatma, nə yaxşı oldu, gördüm səni.

-Südabə, uşaqlar necədir, nəvələrin neyniyir?

-Hamısı yaxşıdır. Ay qız, qızları vermisən, ya yox?

-Az, hamısını vermişəm, gediblər...

Bu məzmunda söhbət ta ehsan başa çatanadək davam edir. Yeyirlər, söhbətləşirlər, masanın üzərindəki bütün təamlardan bir-birinə təklif edirlər. Ta dadmadıqları yemək, şirniyyat qalmır.

***

Yemək bitib, Fatma ilə Südabənin başı söhbətə elə qarışıb ki, ətrafda olanlardan xəbərləri belə yoxdur. Tək onlar yox, buradakı hər kəs yanındakı ilə söhbətdədir. Molla axı ehsan duası oxumalıdır. Yazıq molla, indi gəl, camaatı sakitləşdir ki, duanı eşidən olsun.

Molla nə edir, əlində bir qaşıq, mikrofona döyəcləyir ki, səsinizi kəsin, ay xanımlar. Dua oxuyuram, bura söhbət etməyə gəlmisiniz?

Təəssüf ki, molla özü deyir, özü eşidir. Səs kəsilmir ki, kəsilmir. Molla da başlayır bu dəfə qışqırmağa ki, heç olmasa duanı oxusun, ev sahibi eşitsin ki, bir azdan yas bitəndə aldığı pul və içi buradakı nemətlərin hər biri ilə dolu çanta halalı olsun.

Bu üzdən də boğazı yırtılsa da, oxuyur.

***

Molla oxuduqca, səs artır, arada molla əsəbiləşir: ay xanımlar, axirəti fikirləşin. Belə bir gün hər birimizin olacaq. Gəlin, bir-birimizə hörmət edək. "Fatihə" söyləyir.

Camaat elə buna bənd imiş kimi, qalxır ayağa, gedirlər. Yox, hamı getmir. Çay içmək fikrində olanlar qalır.

Bu arada çay gəlir. Qalan camaat çay da içib, mollaya qaş-göz edirlər ki, bir "Fatihə" ver, duraq. Mollanın da bu qaş-göz məsələsi çoxdan anladığı bir məsələ olduğu üçün həmin an başlayır "Fatihə"yə.

***

Beləliklə, zal boşalır. Burada qalanlar mərhumun lap yaxınlarıdır. Çünki bir qədər uzaq olanlar da artıq camaatla gediblər ki, uzaq yoldur, ancaq evə çatacağıq.

Birgünlük yas bitir. Mərhum yüz ilin ölüsü olur. Molla da haqq-hesabın alıb, düşür yola. Qulağı qalır səsdə ki, görək növbəti dəfə kim ölür...

***Mətanət Məmmədova***



Elçin Bayramlı

# Siqaretin bahalaşdırılması nəyə xidmət edir?

Ümumdünya Səhiyyə Təşkilatının məlumatlarına görə, tütünçəkmə XX əsrdə 100 milyondan artıq insanın ölümünə səbəb olub. Tütündən yaranan xəstəliklər hər il hər 5 milyondan artıq insanın həyatına son qoyur. Hazırda dünyada 1,5 milyardan artıq insan tütün istehlakçısıdır. Proqnozlara görə, 2050-ci ilədək bu rəqəm 2 dəfə artacaq.

ÜST-ün siyahısına görə, Azərbaycan ən çox tütün istehlak edən ölkələr arasında 13-cü yeri tutur. Təxmini hesablamalara görə, vətəndaşlarımızın hər 7 nəfərindən 1-i siqaret çəkən hesab olunur. Başqa sözlə, Azərbaycanda 1,5 milyon siqaret istehlakçısı olduğu güman edilir. Bu sıraya daxil olanların içində gənclər və yeniyetmələrin də əhəmiyyətli payı var. Üstəlik son vaxtlar "müasirləşmə" kampaniyasının dozasının yüksək olması nəticəsində qadınlar arasında da siqaret çəkənlər artır.

Azərbaycanda hər il 15-20 min nəfərin tütünçəkmənin yaratdığı müxtəlif xəstəliklərdən dünyasını dəyişir. Tütünə qarşı maarifləndirici kampaniyalar aparılsa da, respublika qanunvericiliyi tütün məmulatlarının reklamını qadağan etsə də, siqaret çəkənlərin sayı azalmaq əvəzinə artır. Son vaxtlar siqaretin qiymətinin davamlı artması da siqaret çəkənlərin sayının azalmasına təsir göstərməyib. Azərbaycanda Milli Məclisin qərarı ilə 18 yaşına çatmamış vətəndaşlara siqaretin satılmaması barədə qanun qəbul olunub. Lakin reallıqda bu qanunun tələblərinə riayət olunmur. Bu adi müşahidələr zamanı da, ictimai təşkilatların monitorinqləri zamanı da ortaya çıxır.

Bunu satıcılara irad tutduqda və ölkə parlamenti tərəfindən qəbul olunmuş qanunu xatırlatdıqda onlar müxtəlif bəhanələrlə vəziyyətdən çıxmağa çalışırlar. Satıcıların əksəriyyəti deyirlər ki, uşaqlar siqareti adətən ataları üçün alırlar. Buna nəzarət mexanizmi yoxdur.

Adi müşahidələrimiz cəmiyyətin yaşlı təbəqəsinin də azyaşlılara və yeniyetmələrə siqaret çəkməyə görə irad tutmadıqlarını da göstərir. Hətta hər birimiz yəqin ki, azyaşlı uşaqların yaşlı kişilərdən siqaret yandırdığının və həmin yaşlının da həvəslə ona kibrit uzatdığının şahidi olmuşuq. Yeniyetmələr və gənclər arasında siqaret çəkənlərin sayının artmasının bir səbəbi də onların asudə vaxtının səmərəli təşkil edilməməsidir. İnkişaf etmiş ölkələrdən fərqli olaraq, Azərbaycanda valideynlərin azı 70 faizi övladının idman seksiyası və başqa yaradıcı dərnəklərdə məşğul olmasını təşkil edə bilmir. Çünki onların qiymətləri çox yüksəkdir. Buna görə də, uşaqlar özbaşına qalır, onlar böyüklərə oxşamağa çalışaraq siqaret çəkirlər. Bəziləri isə, bununla da kifayətlənməyib, narkomaniyaya meyil edir.

Hökumət tərəfindən aksiz vergilərinin mütamadi artırılması nəticəsində siqaretlər maya dəyərindən dəfələrlə baha satılır. Burada əhalini siqaretdən çəkindirmək əsas kimi göstərilsə də, bu, əslində, tütün sənayesindən daha çox gəlir götürməyə hesablanıb. Çünki siqaretlərin bahalaşması siqaret çəkənlərin sayını zərrə qədərə də azaltmır, sadəcə onların xərclərini artırır.

Burada siqaretin 2 manat və ya 3 manat olmasının elə də rolu yoxdur. Siqaret çəkən şəxs istənilən halda onu alacaq. Bir çoxları isə sadəcə daha ucuz siqaretlərə keçir. Yəni, siqaretlərin bahalaşdırılmasının səbəb kimi, guya insanların sağlamlığını qorumaq kimi qələmə vermək mümkün deyil.

Son vaxtlar elektron siqaretlərin satışı artır. Elektron siqaretin yandırılan yağı süni kimyəvi maddələrdən əldə edilir və onun orqanizmdə hansı fəsadlar verəcəyi hələ tam dəqiqləşdirilməyib. Ola bilər ki, xərçəng daxil çox təhlükəli xəstəliklərə səbəb olsun. Çox təəssüf ki, son vaxtlar yeniyetmələr (xüsusən qızlar) arasında da elektron siqaret çəkənlərin sayı artıb və onun tütün ətri olmadığına görə valideynlər çox vaxt bundan xəbərsiz olurlar.

Hər bir halda bu zərərli vərdişin aradan qaldırılması üçün əsaslı tədbirlər görülməlidir. Əgər müvafiq orqanlar həqiqətən əhalinin sağlamlığını istəyirsə, tütünlə mübarizədə tamam başqa metodlar tətbiq olunmalıdır. Bu barədə xarici ölkələrin müsbət təcrübələri var. Onlardan istifadə etmək olar.

Hökumət, siqareti tərgitmək istəyənlərə müvafiq dərmanlar və digər vasitələrlə kömək göstərməlidir, onlara müəyyən məsələlərlə güzəştlər tətbiq olunmalıdır. Tütünlə mübarizədə müsbət təcrübəsi olan ölkələrdə belə edirlər. Elə qonşularımız Rusiyada və Türkiyədə də belə tədbirlərlə tütünçəkmə səviyyəsi azaldılır.

Burada əsas faktorlardan biri də, ictimai qınaq və maarifləndirmədir. Qapalı məkanlarda siqaret çəkilməsinin qadağan olunması yaxşı tədbirdir. Başqa tədbirlər də görülə bilər.

# Kursk əldən gedir?

## Vladimir Putin Ukrayna Silahlı Qüvvələrinin hücumunun dəf edilməsi üçün prioritetləri müəyyənləşdirdi



Prezident Vladimir Putin bazar ertəsi Novo-Oqarevoda Rusiyanın Ukrayna ilə həmsərhəd üç rayonunda döyüş də daxil olmaqla vəziyyətlə bağlı operativ iclas keçirib. Bryansk, Belqorod və Kursk vilayətlərinin rəhbərləri hazırkı vəziyyətlə bağlı məruzə ediblər, prezident onlardan bütün yaranan məsələləri tez həll etməyi, əhalinin ehtiyaclarına həssaslıqla cavab verməyi və sayıqlığı itirməməyi tələb edib. Bundan əvvəl dövlət başçısı qısa giriş nitqi ilə çıxış edərək baş verənlərə münasibətini açıqlayıb və bildirib ki, “mülki əhaliyə, mülki infrastruktura fərq qoymadan hücum edən və ya nüvə enerjisi obyektlərinə təhlükə yaratmağa çalışan insanlarla” Rusiya hakimiyyət bu barədə heç nə danışmamalıdır.

“Əlbəttə ki, baş verən hadisələrə qiymət verilməlidir və bu da ediləcək” deyən Vladimir Putin iclasda qeyd edib ki, hazırda əsas məsələ bu deyil, “cari problemlərin həlli”dir. Bunlardan birincisi - “düşməni sıxışdırıb ərazilərimizdən çıxarmaq” və sonra dövlət sərhədinin etibarlı mühafizəsini təmin etmək Müdafiə Nazirliyinə həvalə olunub. FSB və Rusiya Qvardiyası “terrorla mübarizə vəziyyətini və düşmənin təxribat və kəşfiyyat qruplarına qarşı effektiv mübarizəni təmin etməlidir”. Mülki idarələr təhlükəsizlik qüvvələrini ehtiyac duyduqları hər şeylə təmin etməyə borcludurlar və “hamı müvafiq regionların rəhbərləri ilə birlikdə əsas vəzifəyə diqqət yetirməlidir – bu, köməyə və müdafiəyə ehtiyacı olan insanları dəstəkləməkdir”.





Bununla belə, dövlət başçısı mülki problemlərə keçməzdən əvvəl hərbi vəziyyətlə bağlı öz baxışını qısaca təsvir etməyi zəruri hesab edib. Onun sözlərinə görə, indi aydın oldu ki, “Kiyev rejimi” niyə “dinc nizamlama planına qayıtmaq” təkliflərindən inadla imtina edib – o, sadəcə olaraq “gələcəkdə danışıqlarda mövqelərini yaxşılaşdırmağa” çalışır. ”Bəs biz dinc əhaliyə, mülki infrastruktura fərq qoymadan hücum edən və ya nüvə enerjisi obyektlərinə təhlükə yaratmağa çalışan insanlarla hansı danışıqlardan danışa bilərik?” – prezident ritorik sual verib.

Eyni zamanda, Vladimir Putinin sözlərinə görə, Kiyev əsas hərbi məqsədə - Rusiya qoşunlarının Donbass və Novorossiyada hücumunu dayandırmağa nail olmayıb, çünki bu hücumun sürəti ”bir yarım dəfə artıb”.

Düşmənlər Rusiyanın daxili siyasi vəziyyətinə də təsir göstərə bilmədilər - burada ruslar özləri cavab verdilər, onlar həm ”çarpışmada olanları”, həm də ordunu yekdilliklə dəstəklədilər, prezident vurğulayıb: ”Müqavilə bağlamaq istəyənlərin sayı Müdafiə Nazirliyi son günlər artıb”. Bu arada, Ukrayna Silahlı Qüvvələrinin itkiləri ”kəskin şəkildə” artır, ”o cümlədən, döyüşə hazır birliklər və bölmələr arasında”, deyə Vladimir Putin yekunlaşdırıb: ”Düşmən, şübhəsiz ki, layiqli cavab alacaq və biz, şübhəsiz ki, qarşıda duran bütün hədəflərə nail olacağıq”.



Bundan sonra dövlət başçısı videobağlantı vasitəsilə çıxış edən üç qubernatorun hesabatını dinləyib.

Bryansk vilayətində, Aleksandr Boqomazın sözlərinə görə, vəziyyətin ”sabit olduğunu söyləmək olar”. ”Son vaxtlar düşmən mülki əhaliyə ”daha çox” hücum edir. Biz bütün ziyanı regional büdcədən ödəyirik”, o vurğulayıb. Buna baxmayaraq, bölgədə yerlərin sayını 32 minə çatdırmaq perspektivi ilə 1,5 min nəfər üçün müvəqqəti yerləşdirmə mərkəzləri (MYM) yaradılıb. Qubernator deyib: “Kursk vilayətinin təcrübəsini nəzərə alaraq, bütün MYM-lar köçürülüb onlar təmas xəttindən 50 km-dən çox məsafədədir”. Düşmən sərhəd zonasında vəziyyəti daha da pozmağa çalışacaq, prezident ona xəbərdarlıq edib, ona görə də “vəziyyətin istənilən inkişafına” hazırlıqla bağlı bütün məsələlər əvvəlcədən həll edilməlidir.

Qubernator Vyaçeslav Qladkov, Belqorod vilayətində vəziyyətin yalnız rayon mərkəzində yaxşılaşdığını, ”sərhəd bölgəsində” isə daha da pisləşdiyini söyləyib: atəş və İHA reydlərinin sayı artıb. Bu vəziyyət sərhəddəki 115 minə yaxın insanı narahat edir”.

Cənab Qladkov həmçinin Belqorod vilayətindəki müharibə qurbanlarına ödənişlərin artırılmasını, eləcə də evləri dağılmış vətəndaşların ipoteka kreditlərinin silinməsini təmin etməyi xahiş edib. Burada Vladimir Putin baş nazirin müavinləri Denis Manturov və Marat Xusnullini dialoqa cəlb edib. Birincisi, Kursk vilayətində ipoteka və istehlak kreditlərinin ödənilməsinə moratoriumun artıq tətbiq olunduğuna inandırıb və Belqorod vilayətində məsələni ”tezliklə həll edəcəyinə” söz verib. “Biz bu qərarı hazırlayacağıq, bu, tamamilə ədalətlidir, bu cür hallar baş verərsə, dərhal Belqorod, Kursk və potensial olaraq Bryanska da şamil edilməlidir”, - cənab Xusnullin həmkarını dəstəkləyib.

Kursk vilayətinin qubernatoru Manturov isə bildirib ki, koordinasiyalı şöbələr evakuasiya, ödənişlər (adambaşına 10 min rubl) və elektrik enerjisi ilə məşğuldurlar və insanlar lazımi vəsaitlərlə təmin olunur. Bölgədə transformatorlar yüklənir və işıqlar tez-tez kəsilir.

Aleksey Smirnov döyüş kəşfiyyatından başlayaraq bölgədəki vəziyyət barədə ətraflı məlumat verib: “Düşmən nəzarətində olan 28 yaşayış məntəqəsi var, Kursk vilayətinin ərazisinə nüfuzetmə dərinliyi 12 km, cəbhə boyu eni 40 km-dir”. Lakin onun məruzəsi Vladimir Putin tərəfindən kəsilib: “Qulaq as, Aleksey Borisoviç, bu hərbi idarə bizə orada nə qədər genişlik və dərinlik olduğunu bildirəcək. Siz bizə sosial-iqtisadi vəziyyətdən danışacaqsınız, insanlara köməklik barədə məlumat verəcəksiniz”.






Qubernator səlahiyyətlərini icra edən hakimiyyət orqanlarının sakinlərin köçürülməsi prosesini bir neçə mərhələyə bölərək 180 min nəfərin təxliyəsini hazırladığını, onlardan 121 mini bu günə kimi tərk etdiyini bildirib.

”İndi bütün ölkə üzrə Kursk sakinləri üçün 53 min yer ayrılıb: 20 mini Moskvada, 25 mini digər bölgələrdə, daha 2,4 min ”mobil” yer Rusiya Dəmir Yollarının yurisdiksiyasındadır”, Smirnov sadalayıb. Onun sözlərinə görə, humanitar yardımın paylanması gecə-gündüz və problemsiz aparılır (sakinlərin özləri çox kömək edir), tibb müəssisələrində kifayət qədər qan və dərman var, üstəlik 1,9 mindən çox çarpayı pulsuzdur (FMBA və Federal Səhiyyə Nazirliyinin xəstəxanaları da yerləşdirilib), rayona 422 həkim gəlib. İclas zamanı regional hakimiyyət orqanları 12 mülki şəxsin öldüyünü və 121 yaralının olduğunu bildirib.

Kursk vilayətinin başçısı qeyd edib ki, bir gün əvvəl energetiklər qrupu kimyəvi silah mərmilərindən atəşə tutulsa da, təcili yardım qrupları stabil işləyir: “Onlar polis şöbəsinə sığınıblar, hamı sağdır, amma hər iki polis əməkdaşı və kənd sovetinin sədri zəhərlənib”. Eyni zamanda, Müdafiə Nazirliyinin göstərişi ilə hakimiyyət orqanları 90 tağım dayaq məntəqəsinin tikintisinə başlayıb, 40 km-lik tank əleyhinə arxlar qazıb və 40 nəzarət-buraxılış məntəqəsinin yerləşdirilməsinə başlayıb.

Aleksey Smirnovun sözlərinə görə, könüllülər insanları təhlükə zonasından çıxarmaqda davam edir, iki könüllü isə “düşmən DRG-nin fəaliyyət zonasına” düşərək “yoxa çıxıb”. Təxribatçıların ”paltarımızda, maşınlarımızda, sənədlərimizlə işləməsi” təhlükəsi var, deyə qubernator səlahiyyətlərini icra edən izah edib, buna görə də səlahiyyətlilər patrulları artırılbar: ”Moskva kömək etdi, Moskva dövlət müəssisəsindən bizə 1 min adam gəldi”. Cənab Smirnov əlavə edib ki, əlavə gücləndirmə üçün “Nəqliyyat Nazirliyinin kadrları” və könüllü dəstələr gözləyir.

Bununla da tədbirin açıq hissəsi başa çatıb və prezident ənənəyə uyğun olaraq bağlı qapılar arxasında təhlükəsizlik qüvvələrinin hesabatlarını dinləyib. Kremlin rəsmi saytının məlumatına görə, görüşdə Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqu, prezidentin köməkçisi Aleksey Dyumin, Daxili İşlər və Fövqəladə Hallar nazirliklərinin rəhbərləri Vladimir Kolokoltsev və Aleksandr Kurenkov, FTX-nin direktoru Aleksandr Bortnikov, baş nazir, Rusiya Qvardiyasının komandanı Viktor Zolotov və Baş Qərargah rəisi Valeri Gerasimov iştirak ediblər. Hərbi idarənin rəisi Andrey Belousov iclasda videokonfrans vasitəsilə iştirak edib.

**V.SALAH**

# Müsəlman aləminə qarşı cinayət

***İşğaldan azad edilmiş bütün ərazilərimizdə, Böyük Qayıdış konsepsiyasına uyğun olaraq abadlıq-quruculuq işləri sürətlə davam etdirilir. Yeni yollar salınır, infrastruktur qurulur, kəndlər, qəsəbələr bərpa edilir. Planlı və sistemli şəkildə görülən bütün işlər bilavasitə dövlətimizin başçısı İlham Əliyevin nəzarəti altındadır. Azərbaycan Prezidenti Şərqi Zəngəzura və Qarabağa səfərləri zamanı təməlqoyma və açılış mərasimlərində iştirak edir, aparılan işlərlə yerindəcə tanış olur, tapşırıq və tövsiyələrini verir. Məlumdur ki, işğal dövründə tarixi-mədəniyyət və dini abidələrimizə, ətraf mühitə ciddi ziyan dəyib. Ermənistan qanunsuz silahlı birləşmələri tərəfindən dövlət əmlakının və xüsusi mülkiyyətdə olan əmlakın məhv edilməsi, talan edilməsi ilə bağlı Azərbaycan dövlətinə və vətəndaşlarına küllü miqdarda ziyan vurub.***






Azərbaycanın işğal olunmuş ərazilərində erməni işğalçılarının özbaşınalığı, tarix və mədəniyyət abidələrimizin dağıdılması və qəsdən korlanması "Arxeoloji irsin mühafizəsi haqqında" Avropa Konvensiyasına, "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" YUNESKO-nun konvensiyasına zidd olsa da 30 ilə işğal altında qalan Azərbaycan mədəniyyət abidələrinin əksəriyyəti məhv edilib. Ümumiyyətlə, 30 ilə yaxın müddətdə işğal altında saxlanılan ərazilərimizdə yaşayış məntəqələrinin əksəriyyəti, orada həyat üçün zəruri olan sosial-iqtisadi infrastruktur obyektləri dağıdılıb. Bütün bunlara baxmayaraq, Azərbaycan dağıdılmış, talan edilmiş məkanları, tarixi abidələrimizi bərpa edir. Erməni vandalları xalqımıza məxsus olan bütün abidələr dağıdıb, yerlə-yeksan ediblər. İşğal altındakı torpaqlarımızda təqribən 403 tarixi dini abidə olub ki, onlardan 67-i məscid, 144-ü məbəd, 192-i ziyarətgahdır. 67 müsəlman məscidinin 63-ü tamamilə, 4-ü isə qismən dağıdılaraq yararsız hala salınıb. Ermənilər əxlaqsızlıq, mənəviyyatsızlığının məntiqi olaraq Ağdam Cümə məscidinin içərisində ev heyvanları, o cümlədən donuz saxlamaqla simasız, rəzil olduqlarını göstərmiş oldular.

## ERMƏNİ VANDALLIĞI VƏ VƏHŞİLİYİ

Ağdam Cümə məscidi erməni işğalından sonra qismən dağıdılmışdır. Məscid Ağdam şəhərində tam dağıdılmayan tək tikilidir, burada mal-qara və donuzlar saxlanmışdır və divarı qraffiti ilə vandalizasiya edilmişdir. Ermənistan Respublikasının müvafiq dövlət qurumları tərəfindən, azərbaycanlıların ibadət yeri olan Ağdam məscidinin rəsmi şəkildə təhqir olunmasına və dağıdılmasına qərar verilmişdir. Məscidin minarələri daxildən tamamilə sökülmüş, tavanı bir neçə yerdən uçurdulmuş, daxili tərtibatı, dizayn və divar yazıları pozulmuş, hücrələri və yardımçı otaqları uçurdulmuş, komunal və komunikasiya xətləri dağıdılaraq tamamilə yararsız hala salınmışdır. Məscidin bəzək əşyaları, texniki avadanlıqları, qurğuları, bərk və yumuşaq inventarları qarət edilərək Ermənistan Respublikasına aparılmışdır. Ermənilər məscidin ibadət zalından və yardımçı otaqlarından mal-qara və donuzların saxlanması, yəni tövlə kimi istifadə ediblər.



Bu azmış kimi Zəngilan rayonunda olan məscidlərdən də bu məqsədlə istifadə ediblər. "Zəngilan rayonunda yarıdağıdılmış bəzi məscidlərdən tövlə kimi istifadə olunub, orada donuz saxlanılıb", - deyən Prezident bunun videokadrlarda olduğunu bildirib: "Ağdam məscidində donuz saxlanılıb və bu, bütün müsəlman aləminə qarşı cinayətdir, İslam dininə qarşı cinayətdir. Bütün müsəlman dövlətləri bunu görməlidir və biz bu həqiqətləri bütün müsəlman ölkələrinin rəhbərlərinin diqqətinə çatdırırıq". Yalnız beynəlxalq təşkilatların təzyiqləri nəticəsində Ağdam Cümə məscidini, Şuşa şəhərindəki Aşağı Gövhərağa, Yuxarı Gövhərağa və Saatlı məscidlərinin divarlarını salamat saxlamaq mümkün olub.



Bildiyimiz kimi, Xarici İşlər Nazirliyinin hazırladığı "Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal olunmuş ərazilərində İslam dininə aid tarixi və mədəni irsin məhv edilməsi" və "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı davam edən təcavüzü nəticəsində Azərbaycanın tarixi və mədəni irsinin dağıdılması və təhqir olunması" adlı hesabatlar hazırlanaraq BMT, ATƏT, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, ISESCO-ya, digər beynəlxalq təşkilatlara təqdim edilib. Erməni vandallığını, vəhşiliyini bütün dünya görməlidir və görmüş oldu da.

## QARABAĞ ƏRAZİSİNDƏKİ MƏSCİDLƏRDƏN EŞİDİLƏN AZAN SƏSLƏRİ

Bildiyimiz kimi, artıq Heydər Əliyev Fondu qədim Qarabağ torpağında dini abidələrimizin, məscidlərimizin bərpası üzrə layihəyə başlayıb. Layihə çərçivəsində yerli və xarici mütəxəssislərin iştirakı ilə bölgədəki ziyarətgahlarımızın bərpası, konservasiyası və yenidən qurulması həyata keçirilir. "Bir zamanlar ermənilərin vəhşicəsinə dağıtdığı, tövləyə çevirdiyi müqəddəs dini məkanlarımız yenidən dirçələcək və bütün Qarabağ ərazisindəki məscidlərimizdə azan səsləri eşidiləcək, dualar oxunacaqdır!"- deyə Mehriban Əliyeva bildirmişdir.

Azərbaycan işğaldan azad olunan bütün ərazilərimizdə olan tarixi, dini abidələrimizi məscidləri tikəcək, yenidən bərpa edəcəkdir. Azərbaycan Prezident İlham Əliyevin bildirdiyi kimi, " bütün tarixi, dini abidələrimizi bərpa edəcəyik".

Prezident İlham Əliyev həmin ərazilərdə sökülən məbədlərin bərpasına diqqətlə yanaşır. Məscidlərlə yanaşı, kilsələr də təmir olunur. Bu da ölkə başçısının mədəni irsimizə böyük diqqət və qayğısının təzahürüdür, milli-mənəvi dəyərlərimizin qorunmasına töhfədir. Hazırda Şuşa, Zəngilan, Ağdam, Suqovuşanda, Hadrutda onlarla məsciddə təmir-bərpa işləri həyata keçirilir. Artıq bir neçə məsciddə tikinti işləri başa çatıb. Şuşada Yuxarı Gövhər Ağa məscidi, Saatlı məscidi yenidən qurulub. Dövlətimizin başçısı islam dininin xalqımızın həyatındakı rolunu, onun milli kimliyimizin formalaşmasındakı əhəmiyyətini nəzərə alaraq, ölkədəki dini ibadətgahların qorunmasında, onların gələcək nəsillərə çatdırılmasında əsl fədakarlıq nümayiş etdirir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Rusiyalı ekspert: "Ermənistan Azərbaycan və Türkiyə arasında bölünəcək"

## *Aleksandr Xramçix: "Qərb istəsə belə Ermənistanı qoruya bilməyəcək"*

Rusiyalı hərbi ekspert Aleksandr Xramçixin Caliber.Az-a müsahibəsində regionda gedən proseslər və Ermənistan-Azərbaycan gərginliyinin nəyə gətirib çıxara biləcəyindən danışıb. Müsahibəni oxucularımıza təqdim edirik.





***- Aleksandr Anatolyeviç, sizcə, ABŞ hərbi müşavirinin Ermənistan Müdafiə Nazirliyində görünməsinin səbəbi nədir?***

- Aydındır ki, bu, Ermənistan və ABŞ arasında davam edən yaxınlaşmanın bir hissəsi kimi baş verir.

***- Amerikalı müşavir hansı funksiyanı yerinə yetirəcək?***

- Bilmirəm. Görünür, o, əlaqələri təmin edəcək. NATO standartlarına keçid son dərəcə mürəkkəb və uzun bir prosesdir. Əslində, hətta bütün NATO üzvləri NATO standartlarına keçməyib.

***- Aydındır ki, ABŞ-ın Ermənistandakı hərbi mövcudluğunu gücləndirmək İrəvanı Moskvadan qoparmaq məqsədi daşıyır. Vaşinqton bu vəzifəni yerinə yetirə bilərmi?***

- Birləşmiş Ştatlar bunu etməyə böyük ölçüdə artıq nail olub.

***- Bəs niyə Ermənistan hələ də KTMT və AİI-dən çıxmaqda tərəddüd edir?***

- Görünür, hələ bir az qorxuludur. Bundan əlavə, Ermənistan Rusiyaya paralel idxalla bağlı iş aparır.

***- Sizcə, İrəvan bir müddət iki stulda otura biləcəkmi?***

- Həqiqətən bilmirəm. Dəqiq tarixləri proqnozlaşdırmıram.

***- Moskva vaxtaşırı xəbərdarlıq edir ki, Ermənistan Ukraynanın taleyini yaşaya bilər...***

- Hansı taleyi?

***- Göründüyü kimi, Ermənistan dövlətçiliyinin süqutu.***

- Krım və Donbassın rolu necə olacaq? Ermənistanda daxili separatizm üçün heç bir əsas yoxdur. Bu boş, mənasız demaqogiyadır.

***- Yaxşı, sualı başqa cür verəcəm. Nəhayət Rusiyanı tərk etsə, Ermənistanın aqibəti necə olacaq?***

- Aydındır ki, Türkiyə ilə Azərbaycan arasında bölünəcək.

***- Bu necə mümkündür?***

- Asanlıqla. Qərb istəsə belə onu qoruya bilməyəcək.

***- Sizcə, Ermənistanda insanlar bunu başa düşmürlər?***

- Ermənilərdən soruşmaq lazımdır. Qərbçilik çoxdan bir dinə çevrilib.

***- Sizcə, Moskva Ermənistanı bu qədər asanlıqla təsir zonasından buraxacaq?***

- "Moskva buraxmayacaq" nə deməkdir?

***- Rusiyanın Ermənistana təsir alətləri var- siyasi, iqtisadi…***

- Həqiqətən bilmirəm. Mən Ermənistanın siyasətini dəyişmək istiqamətində hər hansı tendensiya görmürəm.

***- ABŞ-ın məhdud hərbi kontingenti artıq Ermənistanda, Zəngəzurda peyda olub. Ermənistanda tamhüquqlu Amerika hərbi bazalarının yaranmasına ehtimal verirsinizmi?***

- Amerikalılar ora getməyəcək, çox problemli yerdir.

***- İrəvan konstitusiyanın dəyişdirilməsinə və Bakı ilə sülh müqaviləsinin imzalanmasına razı olacaqmı?***

- Onların nə qədər oyun oynayacaqlarını söyləmək mənim üçün çətindir. Bu, görünür, bəzi daxili amillərlə müəyyən edilir. Onları mühakimə etmək mənim üçün çətindir.

***- Rusiya hərbi bazasının Gümrüdən çıxarılmasına ehtimal verirsinizmi?***

- Tamamilə. İstənilən müqavilə ləğv edilə bilər.

***Tərcümə - Elçin Bayramlı***

# Ukraynada kişilər tükənir?

Rusiya-Ukrayna müharibəsi fonunda 2024-cü ildə Ukraynada ölüm nisbətinin doğum səviyyəsindən üç dəfə çox olması barədə yerli media orqanları yazır. Yeni doğulan hər bir vətəndaşa üç ölüm düşür. Bu barədə ölkənin Ədliyyə Nazirliyinin məlumatlarına istinadən yerli xəbər saytları məlumat verir. Məlumata görə, bu ilin ilk yarısında Ukraynada 87 655 uşaq doğulub ki, bu da 2023-cü ilin eyni dövrü ilə müqayisədə 9%, müharibədən əvvəlki dövrlə müqayisədə isə 1.5 dəfə azdır. 2021-ci ildə Ukraynada doğum səviyyəsi 1,16 olub. 2020-ci ildə, koronavirus xəstəliyinin yayılmasından əvvəl ümumi doğuş nisbəti 1,2 idi, müharibə zamanı isə 1-dən aşağı düşüb. Sosial Siyasət Nazirliyinin məlumatına görə hazırda bu rəqəm 0,8-0,9-dur. Bu təbii artım sürətindən (2,1-2,2) çox aşağıdır.

Bildirilir ki, son üç yüz ildə Ukraynada bu qədər az uşaq doğulmayıb. Hətta 1719-cu ildə müasir sərhədlər daxilində əhalinin sayı 5,7 milyon nəfər hesab ediləndə, doğulanların sayı 280 min nəfər idi. Dövlət Statistika Xidmətinin məlumatına görə, sonuncu ÜmumUkrayna Əhalinin Siyahıyaalınması zamanı (5 dekabr 2001-ci il) Ukrayna əhalisi 48,5 milyon nəfər olub. Ukrayna Milli Elmlər Akademiyasının Demoqrafiya və Həyat Keyfiyyəti Problemləri İnstitutunun hesablamalarına görə, 2022-ci il yanvarın 1-nə Ukraynanın 1991-ci il sərhədləri daxilində əhalisi 42,0 milyon nəfər, 2023-cü ilin avqustunda 36,3 milyon nəfər təşkil edib.

Mütəxəssislər əhalinin azalmasında aşağı doğum nisbətini, kütləvi miqrasiyanı, vaxtında və keyfiyyətli tibbi yardım ala bilməməsi səbəbindən əhalinin sağlamlığının pisləşməsini, əlilliyi olan şəxslərin, o cümlədən hərtərəfli reabilitasiyaya və dəstəyə ehtiyacı olan uşaq və gənclərin sayının artmasını, xüsusilə kişilər arasında vaxtından əvvəl ölümün yüksək səviyyəsini, Rusiya Federasiyası ilə olan müharibədə çox sayda hərbçilərin və mülki şəxslərin, o cümlədən uşaqların ölümünü səbəb göstərirlər. Nəticədə orta uzunömürlülük 2020-ci ildə olduğu kimi kişilərdə 66,4 yaşdan 57,3 yaşa, qadınlarda isə 76,2 yaşdan 70,9 yaşa qədər azalıb.



Kiyev Beynəlxalq Sosiologiya İnstitutunun (KIIS) direktoru Vladimir Paniottonun sözlərinə görə, 60-cı illərdən dəri demoqrafik keçid yaşanır: "Akademik Sergey Kapitsa dünya əhalisinin sonsuza qədər artmayacağını və nə vaxtsa 10-11 milyard sabitləşəcəyini göstərən riyazi model yaratdı, təbii ki, əhalinin azalması Hindistan və Çin kimi ölkələr üçün daha aktual olardı, lakin Avropa, Ukrayna bu yolla daha fəal gedir", - deyə sosioloq bildirib. Paniottonun sözlərinə görə, ölümlə nəticələnən müharibə, şübhəsiz ki, Ukraynanın demoqrafiyasına təsir edib: "Biz araşdırma apardıq və müəyyən etdik ki, 2022-ci ildə insanların yalnız 20%-i onların tanışları arasında öldürülənlərin olub-olmaması ilə bağlı suala müsbət cavab verib, 2023-cü ildə onların sayı respondentlərin 44%-i, 2024-cü ilin mayında isə respondentlərin 80%-i olub , Əhalinin 80 faizinin müharibə zamanı həlak olan dostları var, onların dəqiq sayını təxmin edə bilmərik, bu, yüz minlərlə insandır".

Ukrayna Milli Elmlər Akademiyasının Demoqrafiya və Həyat Keyfiyyəti Problemləri İnstitutunun direktoru Ella Libanovanın sözlərinə görə, əhalinin sayının azalması çoxdan başlayıb və müharibədən sonra sayların azalması da deməк olar ki, qaçılmazdır, çünki Ukraynada demoqrafik artım potensialı tükənib. Ona görə də dövlət əhalinin həyat keyfiyyətinin, o cümlədən səhiyyənin, təhsilin, iqtisadi və əmək fəaliyyətinin səviyyəsinin və əhalinin gənc ailələrə kömək etmək qabiliyyətinin yüksəldilməsi üçün qayğı göstərməyə başlamalıdır ki, onların maddi imkanları təmin olunsun və nəsilartırma barədə düşünsünlər.

Paniotto qeyd edir ki, Ukraynada əhalinin azalması yalnız doğum səviyyəsinə görə baş versəydi, bu, belə qlobal problemə çevrilməzdi. Lakin miqrasiya səbəbindən əhalinin sayı azalır: "Bizdə təxminən 8 milyon ukraynalı miqrant var, 6 milyonu vətəndaşlıq almaq üçün AB-yə, bir qismi isə Rusiya Federasiyasına və digər ölkələrə getdi. Yəni 6 milyondan 4 milyonu AB ölkələrinin vətəndaşı olmaq istəyir və geri qayıtmaq fikrində deyillər. Buna görə də biz doğum nisbətinin azalmasına, miqrantların getməsinə, müharibədə həlak olanlara görə daha çox insan itiririk". .

Əhalinin azalmasının digər səbəbi səfərbərlikdir. On minlərlə gənc, o cümlədən yaşı 25-dən aşağı olan gənclər də cəbhəyə göndərilir. Bununla əlaqədar olaraq, 2024-cü ildə 20-30 yaş arasında olan kişilərin nisbəti ölkə tarixində ən az həddə düşüb. Ukraynanın Səfərbərlik haqqında qanununa əsasən, 25 yaşdan 60 yaşadək vətəndaşlar cəbhəyə çağırıla bilər. Ancaq bu yaşdan aşağı kişilər üçün istisnalar var. Belə ki, ukraynalı hüquqşünas Oleq Leontyevin sözlərinə görə, hərbi xidmətə cəlb olunan şəxs ehtiyatda olan hərbçi siyahısındadırsa, o, daha erkən çağırıla bilər: "Ehtiyatda olanlar, əvvəllər hərbi xidmətdə olmuş, hərbi kafedranı bitirmiş və ya dinc dövrdə hərbi xidmətə yararsız hesab edilən və xüsusi müddət ərzində məhdud şəkildə xidmətə yararlı olan şəxslərdir cəbhəyə aparılır".

Məlumat üçün qeyd edək ki, bu prosesə təsir etmək üçün avqustun 5-də Ali Radanın Milli Təhlükəsizlik, Müdafiə və Kəşfiyyat Komitəsi dinc dövrdə yararsız hesab edilən və hərbi xidmətə məhdud şəkildə yararlı olan 18-25 yaş arası kişilərin səfərbər edilməsini qadağan edən qanun layihəsini dəstəkləyib. Ali Rada qanunu qəbul etsə, artıq 25 yaşınadək səfərbər edilmiş şəxslər xidməti tərk edə və demoqrafik artıma dəstək ola biləcəklər.

Rusiya mediası isə yazır ki, Ukraynada insanların sayı dünya ölkələrini manipulyasiya məqsədi ilə azaldılır. Orada hər şeyin nə qədər pis olduğunu göstərmək üçün rəqəmlər bilərəkdən aşağı olaraq qiymətləndirilir. Həmçinin rus saytlarının iddialarına görə, Ukrayna Avropada yeganə dövlətdir ki, 23 il ərzində əhalinin siyahıya alınması aparılmayıb. 23 il əvvəlki rəqəmlər 48 milyon 457 min nəfər olaraq qeydə alınıb. Halbuki BMT standartlarına görə siyahıyaalma hər on ildən bir keçirilməlidir. Əhali sayını təyin etmək üçün son həlledici cəhd 2023-cü il üçün "Ze-team" tərəfindən edilib, lakin hərbi vəziyyət səbəbindən ləğv edildi.

Aralarında Ukraynanın keçmiş baş naziri Nikolay Azarovun da olduğu pessimistlər Ukrayna əhalisinin 23 milyon nəfərə düşdüyünü açıqlayıb. Buna əsas kimi Dövlət Miqrasiya Xidmətinin Kiçik və Orta Biznes Assosiasiyasının nümayəndəsi Aleksandr Dzyubanın rəsmi sorğusuna cavabı göstərilib. 15 may 2023-cü il tarixli sənəddə bu rəqəm göstərilib və 18 yaşdan 60 yaşadək kişilərin sayı 7,08 milyon nəfərdir.

Həmin ilin noyabrında Azarov növbəti itkilərini açıqladı. "Ən mühafizəkar hesablamalara görə, rəsmi Kiyevin nəzarətində olan ərazidə 19 milyon insan qalıb. Bu dəhşətli rəqəmdir!" - o, sosial şəbəkədə yazıb. Bununla belə, ilkin olaraq onun hesablamaları yanlış idi, Ukraynanın Dövlət Demoqrafik Reyestrində hər hansı bir sənədi alan insanlar haqqında məlumatlar var. Belə ki, Reyestr 2012-ci ildə yaradılanda əvvəllər pasport almış vətəndaşlar ona daxil edilməyib, bu, yalnız sənədlərini yenilədikdən və ya biometrik məlumatları aldıqdan sonra baş verib. Reyestrdən yeganə reallıq kimi istifadə etsək, 2023-cü ilin beş ayında Ukraynanın əhalisi bir milyondan çox artıb, 25 oktyabr 2023-cü il tarixinə 24,5 milyon insan haqqında məlumatlar artıq Vahid Dövlət Reyestrinə daxil edilib.

***Lalə Mehralı***

# Kursk 81 il sonra yenidən müharibə meydanına çevrilib

Dünya tarixinin ən amansız və qanlı müharibələrindən olan İkinci Dünya Müharibəsində müxtəlif cəbhələrdə tarixdən silinməyəcək və yaddan çıxması mümkün olmayan savaşlar baş verib. Onların arasında Kursk döyüşü dağıdıcı gücünə və insan tələfatına görə daha amasız döyüşlərdən olub. Bu döyüş müharibənin məcrasını dəyişib, Sovet İttifaqının hərbi uğurlarının davamlı xarakter almasına imkanlar yaratdı. Döyüşlər zamanı hər iki tərəfdən ümumilikdə 1,5 milyon əsgər və zabit həyatını itirib, 2 milyon nəfərə yaxın insan isə sağlamlığından məhrum olunub. Tarixə "Kursk qövsü" kimi düşmüş həmin döyüşlər 1943-cü ilin 4 iyulundan 23 avqustuna qədər davam edib və sovet ordusunun alman qoşunları üzərində qələbəsi ilə başa çatıb. Kursk vilayəti o dövr üçün ən strateji nöqtələrdən hesab edilirdi. Bölgə cəbhə xəttində 225 km. qədər qərbə doğru uzanan, 250 km. genişliyində bir çıxıntı meydana gətirirdi. Bu bölgənin Şimalında Oryol, Cənubunda isə Belqorod - Xarkov cəbhələri yerləşirdi. Generalı Valter Model bu döyüş planına hazırlıq işləri həyata keçirmişdir. General hava foto şəkillərini və kəşfiyyat hesabatlarını hazırlamışdır. Valter Modelə görə Kursk bölgəsindəki Sovet birliklərinin bu təşkili onların, tam da Zeitzlerin planladığı tərzdə bir hücumu gözlədiklərini göstərirdi. Quderian xatirələrində yazır ki, yığıncaqda Maynştaynın fikri soruşulduqda, o, hücumun apreldə edilmiş olsaydı, müvəffəqiyyət şansının yüksək olacağını söyləmiş və iki piyada diviziyasına daha ehtiyac olacağını ifadə etmişdi. Yenə Quderiana görə, Maynştaynin Kurska edilməsi düşünülən hücum haqqında söylədikləri qətilik ifadə etmirdi. Walter Model və Heinz Guderianın etirazlarına qarşı yığıncağın sonunda planı təsdiq edildi. Bəzi Alman komandirlər, xüsusilə də Heinz Guderian bu fikri sorğulayırdılar. Guderian Hitlerə belə soruşmuşdu: "Kurska hücum etmək, hətta o il şərqə hücum etmək lazımlı idimi? Hər hansı bir kimsənin Kurskun yerini da bildiyini bilirsən? Bütün dünya bizim Kursku işğal edib-etməməyimizə əhəmiyyət vermir. Bizi bu il Kurska hücum etməyə, dahası Şərq Cəbhəsində hücuma keçməyə məcbur edən səbəb nədir?." Bəlkə də daha çaşdırıcı bir şəkildə Hitler belə cavab verdi: "Bilirəm. Bunun düşüncəsi belə ürəyimi bulandırır."

## Jukov Stalinə yazdığı məktubda alman hücumunun yerini və izlənilməsi lazım olan strategiyanı göstərmişdi

Moskva alman planları haqqında məlumatı İsveçrədəki "Lucy"-nin casus şəbəkəsi vasitəsilə əldə etmişdir. Ancaq bu, əslində, artıqdan bir məlumat axışı idi, çünki Marşal Jukov, cəbhədə etdiyi gəzintilərdə cəbhə komandirlərinə əmr verərək hava və yer kəşflərini sürətləndirmişdi. Bu kəşflərdə əldə edilən məlumatlar və məhbus sorğulamaları, alman cəbhə gerisində fəal vəziyyətdəki partizanların və yerli xalqın təmin etdiyi məlumatlar daha sonra qiymətləndirildi. Nəticədə Stavkaya (Qırmızı Ordu Baş qərargahı), almanların ana qüvvələrinin, cəbhənin mərkəz seqmentində olduğunu təyin etmiş oldu. 8 apreldə Jukov Stalinə yazdığı məktubda alman hücumunun yerini və izlənilməsi lazım olan strategiyanı göstərmişdi. Almanların hücumu davamlı təxirə salması sovetlərə müdafiə etmələrini hazırlamaq üçün 4 ay vaxt verdi və hər keçən günlə birlikdə çıxıntını dünya üzərində ən ağır müdafiə olunan yerlərdən biri halına gətirdilər. Mərkəz Cəbhəsi və Voronej Cəbhəsi müdafiəetmə xəttlərini doldururdu və Step Cəbhəsi ehtiyat qüvvət olaraq gözləyirdi.İlk vuruşmalar 4 iyul 1943-cü ildə Cənubda baş verdi. Alman hücumunun başlamaqda olduğuna dair hesabatlar sahə Mərkəz Cəbhəsi Komandiri Rokossovski, 5 iyul gecəsi səhərə qarşı saat 02:20-də alman mevzilerini bombalamasını əmr etdi. "Yüksək Baş komandir Köməkçisi" olaraq Rokossovskinin qərargahında olan Jukov da əmri təsdiqləmişdir. Dərhal ardından Stalinlə etdiyi telefon danışığında onun da təsdiqini almışdı.





Almanlar 5 iyul 1943-cü il saat 05:30-da Kurskda hücum etdilər. Şimalda, General Walter Model əmrindəki yeddi zirehli diviziya, iki mexanikləşdirilmiş diviziya və doqquz piyada diviziyası, Oryol cəhətdən hücuma keçir. Cənubda Fon Maynştayn əmrindəki on zirehli diviziya, bir mexanikləşdirilmiş diviziya və yeddi piyada diviziyası isə Belqoroddan şimal və şimal şərq istiqamətində hərəkata giriş idilər. Cəmi 17 zirehli, 3 mekaniki və 16 piyada diviziyasından ibarət olan cəmi 36 diviziyayla hücuma girişmişlərdir.

Bir həftə boyunca almanların ardıcıl həyata keçirdikləri hücumlar sovet ordusunun qətiyyətli müdafiəsi ilə nəticələndi. Alman qüvvələri, sovet ordularının geridə ana hissələrinə çata bilmədilər. Alman panzer birlikləri, minalı ərazilərində, sıx topçu atəşi altında və Sovet tanklarının hücumlarında azaldılar. Sonunda geri çəkilmək məcburiyyətində qalmışdılar. Kursk Müharibəsi, almanlar baxımından Şərq Cəbhəsində artıq böyük diametrli bir hücum ümidlərinin tamamilə yox olduğu bir dönüş nöqtəsidir.

## Ukrayna Silahlı Qüvvələri babalarının qan tökməklə almanlardan azad etdikləri Kursk vilayətinə daxil olaraq orada öz bayraqlarını qaldırıblar

Kursk döyüşündən 81 il sonra bölgə yenidən savaş meydanına çevirilib. Bu dəfə Ukrayna Silahlı Qüvvələri babalarının qan tökməklə almanlardan azad etdikləri Kursk vilayətinə daxil olaraq orada öz bayraqlarını qaldırıblar. Dünya mediası yazır ki, avqustun 6-dan bəri Ukrayna Rusiyanın Kursk vilayətində 1000 kvadrat kilometr ərazini ələ keçirərək gözlənilməz və uğurlu hücum əməliyyatı keçirir. Ümumilkdə Ukrayna Silahlı qüvvələri Kursk və Belqorod daxil olmaqla 83 yaşayış məskənini nəzarət altına alıb. Vilayətin qubernatoru Simirnov bildirib ki, bölgədən 121 min adam təxliyə edilib: "Düşmənin Kursk vilayətinin ərazisinə daxil olmasının dərinliyi 12 kilometr, cəbhə boyu eni 40 kilometrdir".

Qubernator həyəcanlı şəkildə bəyan edib ki, Ukrayna tərəfi kimyəvi silahdan istifadə edir: "Srağagün Belovski rayonundakı Rosseti briqadası... atəşə tutuldu, mərmilər kimyəvi silahla idi. Polis şöbəsinə sığındıq. Hamı sağdır, amma həm polis əməkdaşları, həm də kənd sovetinin sədri zəhərlənib". Söz yox ki, Ukrayna tərəfinin gözlənilməz hərbi uğur əldə etməsinin əsas təşkilatçısı və müəllifi ABŞ-dır. Baxmayaraq ki, ABŞ rəsmiləri özlərini bu məsələdə kar və kor kimi aparırlar. ABŞ Dövlət Departamentinin sözçüsü Metyu Miller bildirib ki, o, hücumla bağlı heç nə bilmir və Kiyevdən daha ətraflı məlumat istəyəcək: "Biz onlara avadanlıq veririk, məsləhətlər veririk. Amma gündəlik taktikalara gəlincə, bəzən bu barədə danışırıq, bəzən də demirik. Qərarları onlar verir". Almaniya Müdafiə Nazirliyinin nümayəndəsi bildirib ki, "Almaniya hökumətinin məqsədi Ukraynanı rus təcavüzkarına qarşı mübarizədə dəstəkləməkdir". Avropa Komissiyası bildirib ki, Ukrayna "özünü müdafiə etmək hüququna malikdir", buna "öz ərazisində düşmənə zərbə endirmək daxildir".

## Ukrayna Rusiya ərazilərində hərbi uğurlarını genişləndirir

Rusiya Təhlükəsizlik Şurasının təcili toplantısını keçirən prezident Vladimir Putin Ukraynanın Kurskda apardığı əməliyyatlara görə cavab verəcəyini bildirib: "Kiyev rejiminin rəhbərləri nəinki rus xalqına qarşı cinayətlər törədirlər, əksinə, mahiyyət etibarı ilə ukraynalıların özlərini, görünür, artıq özlərininki hesab etmədikləri Ukrayna xalqını məhv etmək yolunu tutublar. Ukrayna Silahlı Qüvvələrinin itkiləri onlar üçün, o cümlədən düşmənin sərhədimizə keçirtdiyi ən döyüşə hazır birləşmələr arasında kəskin şəkildə artır. Düşmən, şübhəsiz ki, layiqli cavabını alacaq və qarşımızda duran bütün məqsədlərə, şübhəsiz, nail olunacaq".

Vladimir Putin onu da bildirib ki, düşmənin aşkar məqsədlərindən biri nifaq, nifaq salmaq, insanları qorxutmaq, Rusiya cəmiyyətinin birliyini və birliyini pozmaq, yəni daxili siyasi vəziyyətə zərbə vurmaqdır. Rusiya prezidenti Ukrayna Silahlı Qüvvələrinin ərazilərdən çıxarılması üçün Müdafiə Nazirliyinə və ölkənin hüquq -mühafizə orqanlarına xüsusi tapşırıqlar verib. Lakin bütün cəhdlərə baxmayaraq Rusiyanın güc strukturları Ukrayna ordusuna qarşı təsirli tədbirlər görə bilmirlər. Əksinə, Ukrayna ordusu Rılsk, Lqov və Kurçatov istiqamətində irəliləməyə davam edir. Hazırda əsas döyüşlər Korenevo qəsəbəsi və Martınovka kəndi ərazisində gedir. Vəziyyətin ağırlığını nəzərə alan vilayət rəhbərliyi Qluşkovsk, Rılsk, Korenevsk, Xomutovsk, Belovsk, Bolşesoldatsk və Krasnoyaruzskdə əhalinin təxliyəsini həyata keçirir. Hərbi uğurlardan ruhlanan Ukrayna ordusu Rusiyaya daha bir zərbəni endirmək üçün Kursk Atom-Elektrik Stansiyasını ələ keçirməyə çalışır. Rusiya Müdafiə Nazirliyinin Hərbi-Siyasi Hazırlıq İdarəsinin rəis müavini, "Axmat" Xüsusi Təyinatlı Dəstəsinin komandiri Aptı Alaudinov isə bildirib ki, hücumun qarşısı alınıb və Ukrayna ordusuna məxsus texnikanın böyük hissəsi zərərsizləşdirilib: "Ukrayna prezidenti Zelenskinin "Kurçatov" AES-in ələ keçirilməsinə və bizim həmin əraziləri tərk etməyimizə hesablanan ultimatumu baş tutmadı"

## Dünya nüvə silahı ilə təhdid olunur

Təbii ki, Kursk Atom-Elektrik Stansiyasının zərər görməsi bölgə üçün ağır fəsadlar yarada bilər. Nəzərə almaq lazımdır ki, Zaporijjya AES-in Beynəlxalq Atom Enerjisi Agentliyində baş verən yanğın dünyanın əksər ölkələrinin və beynəlxalq təşkilatların həyəcan təbili çalmağına səbəb olub. Nəticədə MAQATE mütəxəssisləri Zaporijjya AES-in ərazisində bu yaxınlarda baş vermiş yanğın nəticəsində zədələnmiş soyutma qülləsinə baxış keçirib. Təşkilatın hesabatında deyilir ki, hadisənin səbəbi hələ müəyyən edilməyib. MAQATE-nin baş direktoru Rafael Mariano Qrossinin dediyinə görə, "Müşahidələrə əsasən, komanda yanğının əsas mənbəyinin soyuducu qüllənin bazasında baş verməsi ehtimalının az olduğunu bildirib". MAQATE-nin açılamasında bildirilir ki, soyuducu qüllənin əsasını təşkil edən soyuq su hovuzuna daxil olmaq istəyini "təhlükəsizlik baxımından" rədd ediblər: "Zərər çəkmiş soyutma qülləsinə baş çəkərkən komanda yuxarıda, paylayıcı ucluğun səviyyəsinə yaxın olan daxili avadanlıqlarda yanmış sahələri müşahidə edib. Onlar həmçinin soyuq su hovuzunun üzərinə yayılan yanmış plastik damcıları və yıxılan beton parçalarını müşahidə ediblər".

MAQATE-nin mütəxəssisləri xəbərdarlıq ediblər ki, enerji bloklarından təxminən bir kilometr məsafədə soyuducu qüllə və irimiqyaslı yanğınlar, hətta radiasiya qəzasına səbəb ola bilər. Lakin onlar radiasiya fonunun normal olduğuna inandırdılar.

Baş verən qanlı müharibə onu deməyə əsas verir ki, vəziyyətin indiki məqamda stabilləşməsi mümkünsüz görünür. Çünki hər iki tərəf mövqeyində israrlıdır. Yəni Rusiya Ukraynanı Qərblə və ABŞ-la əməkdaşlıq edərək regionun mənafeyinə zərbə vurmaqda günahlandırır, rəsmi Kiyev isə suveren ərazlərinin Rusiya tərəfindən işğal edilməsində ittiham edir və danışıqlar masasına yalnız ərazilərindən Rusiya ordusunun çıxarılmasından sonra otura biləcəyini bəyan edir. Belə ziddiyyətli münasibət müharibənin səngiməsinə imkan vermir. Bu arada Rusiyanın bəzi ölkələri nüvə silahı ilə hədələməsi vəziyyətin son dərəcə kritik xarakter aldığına dəlalət edir. Rəsmi Moskva torpaqlarının işğal edilməsini biabırçılıq hesab edərək düşmənlərini nüvə silahı ilə vura bilər. Bu isə dünyanın sonu ola bilər. Hər halda dünyamız çox təhlükəli dövrə qədəm qoyur. Ağır vəziyyəti yalnız bəşəriyyət də sülhün, təhlükəsizliyin təmin olunmasını arzu edən və buna çalışan siyasətçilər aradan qaldıra bilər. İndiki məqamda isə ortada elə bir siyasətçi yoxdur. Bu isə insanlığın və bəşəriyyətin ölüm-qalım dilemması qarşısında qalmasından xəbər verir.

***İLHAM ƏLİYEV***

# Qarabağın inciləri:
# Ağbulaqlı Əbdürrəhim

*Qarabağın suyunu içənin mütləq bir istedadı var - yazan, yaradan, bəstələyən, oxuyan, ixtira edən...*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği;" istiqaməti çərçivəsində hazırlanıb*








**II YAZI**

Azərbaycanın incisi, 30 il əlçatmaz, ünyetməz qalan, təpədə göz, gözdə bəbək Qarabağa deyilən oxşamalar, oxunan bənzətmələr, həsr edilən şeirlər, mahnılar hüsnünü vəsf etməyə yetməyib. Qarabağ həm təbiəti, həm maddi, həm mənəvi sərvəti ilə hər zaman ora səyahət edənlərin marağını cəlb edib. Qarabağın suyundan içib, çörəyindən yeyən əksər sakininin mütləq seçilən, bəyənilən bir bacarığı olub. Səsi ilə insanları heyrətləndirən, qəzəlləri ilə ağladan, yaradıcılığı ilə milli ədəbiyyata misilsiz töhfələr verən bir çox məşhur insan bu torpaqlarda doğulublar. Silsilə yazılarımızda Qarabağın misilsiz insanlarından, ədəbiyyata, incəsənətə, elmə bəxş etdiyi tanınmış simalarından danışacağıq.

Naşir, dramaturq, ədəbiyyatşünas, dirijor, əməkdar incəsənət xadimi... Onun olmayan məziyyəti olmayıb. Təpədən dırnağa istedad olan Əbdürrəhim bəy Haqverdiyev 1870-ci mayın 17-də Qarabağ mahalının Şuşa şəhəri yaxınlığındakı Ağbulaq kəndində dünyaya gəlib. Ailə sarıdan üzü gülməyib, atasını erkən itirib, anası ikinci dəfə ailə qurub və Əbdürrəhimi əmisinin himayəsinə verib. Amma əmisi də tez dünyasını dəyişir, körpə Əbdürrəhim əmisi arvadının işgəncələrindən anasına sığınmaqla qurtulur. Atalığı onun təhsilinə önəm verir, savadlı yetişməsi üçün məktəbə göndərir.

Əvvəlcə ibtidai təhsilini 1880-ci ildə Şuşada Yusif bəyin müvəqqəti yay məktəbində alır, sonra Şuşa realnı məktəbində oxuyur. Əbdürəhim bəy ədəbi fəaliyyətə də həmin ərəfələrdə, təxminən 1880-ci illərin sonunda başlayıb. Əvvəlcə M.F. Axundzadənin təsiri ilə ”Hacı Daşdəmir” adlı kiçik bir pyes yazır. Ədəbi duyumu, istedadı ilə tələbələr arasında adsan qazanır, yazdığı hər cümlə yoldaşları tərəfindən maraqla qarşılanır. Peterburqda, Yol mühəndisliyi institutunda təhsil aldığı dövrlərdə sonralar onun vizit kartına çevrilən ”Yeyərsən qaz ətini, görərsən ləzzətini” (1892) dramını və ”Dağılan tifaq” (1896) faciəsini yazır.

Tələbə həyatı boyunca durmadan yazan, yaradan gənc Əbdürrəhim ali təhsil alıb Şuşaya qayıdır, burada hər fürsətdə tamaşalar təşkil edir, var gücü ilə mədəniyyətə, incəsənətə töhfə verir, insanları bu istiqamətdə məlumatlanırır, mədəni məşğuliyyətlərə meylləndirir. O Azərbaycanın ilk peşəkar rejissoru hesab edilir. İnsanları teatra cəlb etmək üçün bütün mümkün yollardan istifadə edir. Bakıda yaşadığı müddətdə müəllimliklə məşğul olur, yorulmadan elm, ədəbiyyat tədris edir, eyni zamanda onun rəhbərliyi ilə Şərq konsertləri verilir, insanların mədəni istirahəti və mənəvi zövqü üçün yeni ideyalar fikirləşir. Bu ərəfədə ”Bəxtsiz cavan” və ”Pəri-cadu” faciələrini yazır.

Əbdürrəhim bəyin Azərbaycan ədəbiyyatına verdiyi nəhəng töhfə sayəsində zəngin ədəbi nümunələri var. ”Marallarım”, ”Xortdanın cəhənnəm məktubları”, ”Şeyx Şaban”, ”Xəyalət”, ”Ac həriflər” kimi ədəbi nümunələrin ölməz müəllifi yazdığı hər əbədiyaşar əsərdə bütün dövrlərin problemlərini, gerçəkliklərini ifadə edir. Onun ”Ac həriflər” əsəri əsasında çəkilmiş eyniadlı ekran əsəri isə sadəcə şedevrdir. Əbdürrəhim bəyin yazı dili o qədər axıcı, o qədər rəvandır ki, dövrün təhsilsil və natamam təhsilli insanları onu rahatlıqla anlayır, əsərlərini acgözlüklə oxuyur, dinləyirdilər. O həm də dövrün ictimai-sosial ədalətsizliyini öz əsərlərində qabartdığı üçün sadə insanların sevimlisinə çevrilir.

Bakıda olduğu müddətdə ilk hekayələrini - ”Ata və oğul”u, ”Ayın şahidliyi”ni yazır və ”İki hekayət” adı ilə çap etdirir. 1905-ci il inqilabdan sonra Rusiya Dövlət Dumasına Gəncə quberniyasından nümayəndə seçilmiş Əbdürrəhim bəy Peterburqa yollanır. Bu səbəbdən də o Azərbaycanın ilk diplomatlarından biri kimi tarixə düşür. Duma dağılandan sonra bir müddət orada yaşayır və yazacağı ”Ağa Məhəmməd şah Qacar” faciəsinə lazımlı materiallar toplamaqla məşğul olur. Zaqafqaziyanı, Dağıstanı, Orta Asiyanı və Volqaboyunu səyahət etdiyi müddət boyunca da boş durmayan Haqverdiyev ”Ceyranəli”, ”Xortdan”. ”Həkimi-nuni-səqir”, ”Lağlağı”, ”Mozalan”, ”Süpürgəsaqqal” və s. imzalarla durmadan yazır və ”Molla Nəsrəddin” jurnalında hekayə, felyeton çap etdirir.

Əbdürrəhim bəy Azərbaycan tarixinə həm də ilk drijor kimi düşüb. ”Leyli və Məcnun” operası 1908-ci il yanvarın 12-də tamaşaya qoyulduğu zaman ilk Azərbaycan dirijoru kimi xoru və orkestri idarə edir. İlk tamaşaya istedadlı aktyor və rejissor Hüseyn Ərəblinski quruluş verir, drijorluq üçün Haqverdiyevə müraciət edirlər, o da bu işi məmnuniyyətlə öhdəsinə götürür. Məcnun rolunda Hüseynqulu Sarabski, Leyli rolunda isə aşpaz köməkçisi işləyən, təsadüfən Üzeyir Hacıbəyov tərəfindən kəşf edilən Əbdürrəhim Fərəcov çıxış edir. Sonrakı tamaşalarda isə Hacıbəyov özü və bəstəkar Müslüm Maqomayev dirijorluq edib.

Bu ərəfədə Əbdürrəhim bəy Haqverdiyevin ”Molla Nəsrəddin” jurnalında hekayə və felyetonları çap edilir, böyük maraqla oxunur. Həştərxanda yaşadığı müddətdə şəhərin mədəni-ictimai həyatında ciddi fəaliyyəti olur, daha sonra Ağdama köçüb 4 il orada yaşayır, Tiflisdə ”Şəhərlər ittifaqının Qafqaz şöbəsi xəbərləri” adlı aylıq məcmuənin müdiri olur, fevral inqilabından sonra Tiflis İcraiyyə Komitəsinə və onun mərkəzi şurasına üzv seçilir, sonra isə Borçalı qəzasına müvəkkil təyin olunur.

1919-cu ildə Müsavat hökuməti onu Dağıstana Azərbaycan Demokratik Respublikasının nümayəndəsi göndərir, 1920-ci ilin iyununda isə o, Bakıda yenicə yaranan Şura Teatrının komissarı seçilir. 1921-1931-ci illərdə Azərbaycan Dövlət Universitetində ədəbiyyatdan mühazirələr oxuyur, 1924-cü ildə Rusiya Elmlər Akademiyasının ölkəşünaslıq bürosuna müxbir üzvi seçilir. Həm ədəbi, həm də ictimai müstəvidə olduqca qaynar həyat tərzi keçirən Əbdürrəhim bəy nə işdən, nə də yazmaqdan yorulmur.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonda dövlət teatrlarına müfəttiş təyin olunur, milli teatrın yaranmasında. İnkişafında olan xidmətləri hər zaman yüksək qiymətləndirilir. Əbdürrəhim bəy Azərbaycan milli teatrının yaranmasının 50 illiyi münasibətilə keçirilən yubileyə də rəhbərlik edir. Azərbaycan Dövlət Unive rsitetində tələbələrin yetişdirilməsində onun ədəbi mühazirələrinin böyük rolu olur. Azərbaycanın , ilk elmi-tədqiqat müəssisəsi Tədqiq və Tətəbbö Cəmiyyətində əvvəl sədr müavini və sonra sədri (1923-1925) olur.

Əbdürrəhim bəy tərcümə bacarığı ilə də ədəbiyyata böyük töhfələr vermiş insandır. Görkəmli ədib, Şekspirin ”Hamlet”, Şillerin ”Qaçaqlar”, Volterin ”Soltan Osman”, Zolyanın ”Qazmaçılar”, Andersenin ”Bülbül”,”Şahın təzə libası”, Lanskoyun ”Qəzəvat”, Çirikovun ”Yəhudilər”, Korolenkonun ”Qoca zəng çalan” əsərlərini tərcümə edərək xalqın maariflənməsi və mütaliəsi üçün çalışıb.

1924-cü ildə Rusiya Elmlər Akademiyanın nəzdində olan ölkəşünaslıq bürosunun beşinci elmi sessiyasında yekdilliklə akademiyanın ölkəşünaslıq bürosuna müxbir üzv seçilən Haverdiyev həm də Şərq fakültəsinin katibi (1922-1925), Azərbaycan Yazıçılar İttifaqının məsul katibi (1931-1932) olur. Azərbaycan Xalq Komissarlar Şurasının 6 fevral 1929-cu il tarixli qərarı ilə ”Azərbaycan SSR əməkdar incəsənət xadimi” fəxri adına, 1933-cü ildə isə Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin Fəxri Fərmanına layiq görülür. Onun ölməz əsərləri SSRİ ölkələrində, SSRİ sərhədlərini aşaraq bir çox ölkədə tərcümə olunur.

1933-cü il dekabrın 11-də Bakıda vəfat etmiş Əbdürrəhim bəy Haqverdiyevin məzarı Fəxri xiyabandadır. Onun Azərbaycanın mədəni və ictimai həyatında böyük rolunun və xidmətlərinin olması danılmazdır. Bu səbəbdən də Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli, 211 nömrəli Qərarı ilə Əbdürrəhim bəy Haqverdiyev Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına daxil edilib.

***Lalə Mehralı***

SƏS
15 avqust
2024-cü il

## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. **Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544**
2. **Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694**
3. **Səma Mətbuat Yayım – 0125940252, 0503336969**
4. **Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002**
5. **Qaya Mətbuat yayım – 0125667780, 0502352343**
6. **Qasid Mətbuat Yayım – 0124931406, 0124938343**
7. **F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898**
8. **Ziya LTD – 0124977696, 0503067744**

**1 nüsxə 1 aylığı 13.20 AZN**
**6 aylıq 79.20 AZN**
**1 illik 158.40 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Gizli səsyazma sübut kimi qiymətləndirilir?



*AYDINLIQ GƏTİRİLDİ*



"Azərbaycan Respublikası Konstitusiyasının 32-ci maddəsinə əsasən şəxsi və ailə həyatına müdaxilə yol verilməzdir. Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, heç kəs onun xəbəri olmadan və ya etirazına baxmadan izlənilə bilməz, video və foto çəkilişinə, səs yazısına və digər bu cür hərəkətlərə məruz qoyula bilməz". Bu sözləri SİA-ya açıqlamasında Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü Xəyalə Məmmədova deyib. Xəyalə Məmmədova sözlərinə belə davam edib: "Həmin konstitusion normanın məntiqi davamı olaraq Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin 76.3-cü maddəsində nəzərdə tutulmuşdur ki, qanunu pozmaqla əldə edilmiş sübutlardan istifadə olunmasına yol verilmir. Sübutların əldə edilməsi zamanı qanunvericiliyin tələblərinin pozulması aşağıdakı formada baş verə bilər:

* sübutların qanunla nəzərdə tutulmayan sübutetmə vasitələri ilə əldə edilməsi;
* sübutların əldə edilməsinin prosessual qaydalarının pozulması;
* qanunsuz yolla əldə edilmiş məlumatların sübut kimi işə cəlb edilməsi.

Lakin, nəzərə almaq lazımdır ki, şəxslər arasındakı telefon danışıqlarının bu söhbətdə iştirak edən biri tərəfindən qeydə alınması və həmin şəxslər arasında yaranan məhkəmə mübahisəsi zamanı sübut kimi istifadə edilməsi mümkündür. Belə ki, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun formalaşdırdığı təcrübəyə əsasən mübahisə tərəfləri arasında olan danışıqlar öz-özlüyündə şəxsi toxunulmazlıq hüququna qəsd kimi qiymətləndirilə bilməz".

*Ayşən Vəli*

## "Qarabağ" növbəti tarix yazdı!



Azərbaycan təmsilçisi "Qarabağ" Çempionlar Liqasının 3-cü təsnifat mərhələsində cavab oyununa çıxıb. Ağdam klubu Bolqarıstan "Ludoqorets"i ilə səfərdə qarşılaşıb. İlk matçda Bakıda rəqibinə 1:2 hesabı ilə uduzan Qurban Qurbanovun komandası cavab görüşündə 7:2 hesablı möhtəşəm qələbə qazanaraq tarixində 3-cü dəfə ÇL-in pley-offuna yüksəlib. Ağdam təmsilçisi buna qədər 2 dəfə ÇL-də pley-offda oynayıb. Komanda eyni zamanda ən pis halda Avropa Liqasında Liqa mərhələsinə vəsiqəni təmin edib.

"Qarabağ" ÇL-in pley-off mərhələsində Zaqreb "Dinamo"su (Xorvatiya) ilə üz-üzə gələcək. Qeyd edək ki, pley-off görüşləri 20-21 və 27-28 avqust tarixlərində keçiriləcək.


## ELAN

"Bakı İxtisaslaşdırılmış Mexanizasiya-7" Açıq Səhmdar Cəmiyyəti Səhmdarlara bildirir ki, 1 oktyabr 2024-cü il saat 10-00 Bakı şəhəri 7-ci MKR, Xarici Dairəvi küçəsi 3121-ci məhəllə ünvanında yerləşən inzibati binasında səhmdarların növbəti ümumi yığıncağı olacaqdır.

Yığıncağın gündəliyində müzakirə olunacaq məsələlər aşağıdakılardı:

1. ASC-nin 2023-cü il maliyyə - təsərrüfat fəaliyyətinə dair hesabatın, müzakirəsi və təsdiqi;
2. ASC-nin 2023-cü ilin yekunlarına dair Müfəttişin hesabatı;
3. ASC-nin balansında olan avadanlıqların və texnikaların lazım gəldikdə, satılmasını və silinməsini, İdarə Heyətinə həvalə edilməsi haqqında;
4. Carı məsələlər.

Yığıncaq iştirakçılarının qeydiyyatı 09.00-dan 09.45-dək göstərilən ünvanda keçirilir. Qeydiyyat üçün şəxsiyyət vəsiqəsi və şəxsiyyəti təsdiq sənəd olmalıdır.

Səhmdarlar, ümumi yığıncağın gündəliyi üzrə materiallarla iş günləri saat 10.00-14.00-dək ASC-nin İdarə heyətinin sədri ilə əlaqə saxlamaqla tanış ola bilərlər.

***TEL: +994 50 212 16 13***
***Müşahidə şurası.***


## Yeni virus panikası! - 5-9 yaşlı uşaqlarda sürətlə yayılır



ABŞ-də 2024-cü ilin əvvəlindən 5-9 yaşlı uşaqlarda aşkar edilən "parvovirus"un nisbətində 40 faiz artım müşahidə olunub. SİA xarici KİV-ə istinadən xəbər verir ki, "The Hill"in məlumatına görə, ABŞ Xəstəliklərə Nəzarət və Qarşısının Alınması Mərkəzi tərəfindən edilən açıqlamada bildirilib: "Parvovirus"un (B19 adlı DNT virusunun yaratdığı və üzərində parlaq qırmızı səpgilərə səbəb olan viral xəstəlik) nisbətində yüksək artım var. Xüsusilə 5-15 yaş arası uşaqların yanaqlarında müşahidə edildiyi ifadə edilib.

Açıqlamada son iki ildə xəstəliyə yoluxma hallarının artdığı və 5-9 yaş arası uşaqlarda baş verən halların ilin əvvəlindən 40 faiz artdığı vurğulanıb. Açıqlamada bədənə daxil olan tənəffüs damcıları ilə keçən bu virusun daha çox qızdırma, başağrısı, oynaq ağrısı və səpki kimi yüngül simptomlar göstərdiyi, ancaq immun sistemi problemi olan və ya xroniki qanı olan insanlarda problem yaradacağı bildirilib. Bəyanatda virusa qarşı peyvəndin hələ hazırlanmadığı vurğulanıb və xəstəliyə qarşı diqqətli olmaq barədə xəbərdarlıq edilib.


***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 2700**